


**Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində faşizm üzərində Qələbənin 77-ci ildönümü münasibətilə paylaşım edib** 2




**İtaliya mətbuatı Şuşada və Bakıda keçirilmiş "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" adlı forumdan yazır** 13

# Səs

№ 080 (6521) 10 may 2022-ci il. Qiymәti 60 qәpik



## Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib

2

# ULU ÖNDƏR Heydər Əliyevin
## milli dövlət quruculuğu və müasir inkişaf strategiyası



XX əsrin sonlarında Sovet İttifaqının süquta uğraması və müasir dünya düzəninin formalaşmağa, beynəlxalq arenada yeni münasibətlərin təşəkkül tapmağa başladığı bir dövrdə Azərbaycan öz tarixinin mühüm və taleyüklü mərhələsinə qədəm qoydu. Ciddi təbəddülatlar və təlatümlər burulğanında...

3



7

## Çoxəsrlik tariximizin
**Heydər Əliyev dövrü dövlətçilik salnaməsidir**



9

**Xalqın əbədi sevgisini qazanan**
## ULU ÖNDƏR HEYDƏR ƏLİYEV!



13

## İraq mətbuatı:
**Şuşa "Qafqazın incəsənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" kimi tanınıb**

## O qələbə, bu qələbə...



16

**Azərbaycanın ərazi bütövlüyünün bərpası, Şuşada milli bayrağımızın qürurla dalğalanması Heydər Əliyev siyasətinin təntənəsidir**



14

**Heydər Əliyev ideyaları-qətiyyətlə zəfərlərə doğru!**



11

# Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib

## Prezident İlham Əliyev faşizm üzərində Qələbə uğrunda həlak olan Azərbaycan övladlarının xatirəsini ehtiramla anıb

**Faşizm üzərində tarixi Qələbədən 77 il ötür. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət edərək abidəsi önünə gül dəstəsi qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsini ehtiramla anıb.**

Qeyd edək ki, Azərbaycan xalqı faşizm üzərində tarixi Qələbəyə sanballı töhfələr verib. Bu Qələbənin qazanılmasında çox böyük payı olan xalqımız 600 min oğul və qızını cəbhəyə yola salıb. Onların 300 mindən çoxu döyüşlərdə qəhrəmanlıqla həlak olub. Həmin müharibə zamanı göstərdikləri igidliyə görə Azərbaycanın 130-dan çox nümayəndəsi Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən artıq əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycan sovet ordusu üçün yanacaq-sürtkü materiallarının əsas tədarükçüsü olub. Mühərrik yağlarının 90 faizi, benzinin 80 faizi, neftin isə 70 faizi Azərbaycan tərəfindən təchiz olunub.

Bu müharibədə şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaətləri hər zaman hörmətlə anılıb. Xalqımızın ümummilli lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarına xüsusi diqqət və qayğı göstərib, onları "xalqımızın qızıl fondu" adlandırıb. Prezident İlham Əliyev də müharibə veteranlarının sosial problemlərinin həllini daim diqqət mərkəzində saxlayır, 9 May - Qələbə bayramı ərəfəsində onlara maddi yardımlar göstərilir. Azərbaycan Prezidentinin 2022-ci il 19 aprel tarixli Sərəncamı ilə 1941-1945-ci illər müharibəsində iştirak etmiş şəxslərə 1500 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 750 manat məbləğində birdəfəlik maddi yardım verilib. Bütün bunlar bir daha sübut edir ki, müharibə veteranlarına hərtərəfli diqqət və qayğı Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.






Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə və 1941-1945-ci illər müharibəsində canlarından keçmiş bütün oğul və qızlarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

# "Azərbaycanda Səudiyyə Ərəbistanı Krallığına xüsusi rəğbətlə yanaşılır"

## Prezident İlham Əliyev Səudiyyə Ərəbistanı Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



Prezident İlham Əliyev dünən Səudiyyə Ərəbistanı Krallığının Baş prokuroru Şeyx Səud bin Abdullah Əl Müacibin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı ölkələrimizin müxtəlif sahələrdə uğurla əməkdaşlıq etdiyini vurğulayaraq siyasi əlaqələrimizin yüksək səviyyədə olduğunu bildirib. Səudiyyə Ərəbistanı Krallığına səfərlərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev bu səfərlər zamanı göstərilən qonaqpərvərliyin xalqlarımız arasında mövcud olan qardaşlıq münasibətlərini bir daha nümayiş etdirdiyini bildirib.

Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycanda Səudiyyə Ərəbistanı Krallığına xüsusi rəğbətlə yanaşılır: "Çünki Səudiyyə Ərəbistanı Krallığı dünyanın nadir ölkələrindəndir ki, Ermənistanla heç bir diplomatik əlaqə qurmayıb. Bunun səbəbi isə torpaqlarımızın işğal altında olması idi. Biz bu mövqeyi çox yüksək qiymətləndiririk. 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad olunması erməni vəhşiliyini, azad edilmiş torpaqlarda hər şeyin, o cümlədən 67 məsciddən 65-nin ermənilər tərəfindən dağıdıldığını bütün dünyaya göstərdi."

Ölkəmizin ərazi bütövlüyünü bərpa etməsindən sonra iqtisadi sahədə, o cümlədən energetika sahəsində əməkdaşlıq imkanlarının daha da artdığını vurğulayan Prezident İlham Əliyev bu baxımdan Səudiyyə Ərəbistanı Krallığının böyük şirkətlərinin Azərbaycana maraq göstərməsinin məmnunluq doğurduğunu bildirdi, bu ölkənin "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda Külək Elektrik Stansiyasının təməlinin qoyulmasını bunun yaxşı nümunəsi kimi qiymətləndirdi.

Beynəlxalq təşkilatlarda da ölkələrimizin bir-birini dəstəklədiyini vurğulayan dövlətimizin başçısı, eyni zamanda, insanlar arasındakı əlaqələrin, qarşılıqlı səfərlərin və turistlərin sayının artmasının əməkdaşlığımızın gələcəkdə daha da inkişaf etməsi üçün yaxşı zəmin yaratdığını bildirdi. Prezident İlham Əliyev Şeyx Səud bin Abdullah Əl Müacibin səfərinin ikitərəfli münasibətlərin inkişafına töhfə verəcəyinə əminliyini ifadə etdi.

Şeyx Səud bin Abdullah Əl Müacib İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səud və vəliəhd Məhəmməd bin Salman bin Əbdüləziz Al Səudun salamlarını dövlətimizin başçısına çatdırıb. Qonaq Azərbaycanda gördüyü inkişaf proseslərinin onlarda sevinc hissi doğurduğunu deyib: "Ölkənizin əldə etdiyi inkişafla bağlı Sizi təbrik etmək istəyirəm. Biz Azərbaycan haqqında, ölkənizin iqtisadi, ictimai və sosial sahələrdə əldə etdiyi nailiyyətlər barədə çox eşitmişik. Xüsusilə, böyük Qələbəniz, torpaqlarınızı qısa vaxt ərzində azad etdiyinizə görə Sizi təbrik edirik".

Şeyx Səud bin Abdullah Əl Müacib 10 may - ulu öndər Heydər Əliyevin doğum günü ərəfəsində onun xatirəsini dərin ehtiramla yad edib.




# Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi instaqram səhifəsində faşizm üzərində Qələbənin 77-ci ildönümü münasibətilə paylaşım edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində faşizm üzərində Qələbənin 77-ci ildönümü münasibətilə paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Əziz veteranlar! Faşizm üzərində Qələbənin 77-ci ildönümü münasibətilə sizi təbrik edirəm! Hər birinizə möhkəm cansağlığı, Vətənimizə sülh və əmin-amanlıq arzulayıram!".

# Ulu öndər Heydər Əliyevin milli dövlət quruculuğu və müasir inkişaf strategiyası

**XX əsrin sonlarında Sovet İttifaqının süquta uğraması və müasir dünya düzəninin formalaşmağa, beynəlxalq arenada yeni münasibətlərin təşəkkül tapmağa başladığı bir dövrdə Azərbaycan öz tarixinin mühüm və taleyüklü mərhələsinə qədəm qoydu. Ciddi təbəddülatlar və təlatümlər burulğanında təkbaşına mübarizə aparmaq məcburiyyətində qalmış xalqımız ağır sınaqları arxada qoyaraq aydın gələcəyə doğru inamla addımlamağı bacardı. Baş verənlərə 30 il sonra yaranmış reallıqlar prizmasından nəzər saldıqda Azərbaycanı ağır böhrandan sabit və etibarlı bir dövlət kimi çıxaran geosiyasi, sosial, iqtisadi, hərbi amillərin uzun bir siyahısını tərtib etmək mümkündür.**



Lakin, heç şübhəsiz, Azərbaycanın bugünkü inkişaf mərhələsinə çıxmasını şərtləndirən əsas amil tarixin həlledici məqamında ölkədə və dünyada baş verən mürəkkəb proseslərin mahiyyətini dəqiq qiymətləndirməyi və bu prosesləri milli mənafelərin tələb etdiyi aydın bir istiqamətə yönəltməyi bacaran siyasi liderin mövcudluğu olub. 1990-cı illərin son dərəcə ağır, bir çox hallarda hətta ümidsiz hesab edilən reallıqları ilə müasir Azərbaycan dövlətinin dünyadakı hazırkı yerinin müqayisəsi ümummilli lider Heydər Əliyevin Azərbaycan dövləti qarşısında xidmətlərinin miqyasını və xalqımızın təhtəlşüurunda özünə dərin iz buraxmış dahi obrazını daha aydın görməyə imkan yaradır.

Ötən əsrin sonlarında dünyanın müxtəlif nöqtələrində böyük güclərin həyata keçirdiyi siyasi, sosial-iqtisadi və bəzi hallarda hərbi eksperimentlər bir çox xalqların taleyini və tarixini dəyişdi. Bu proses indi də davam edir. Yəqin ki, böyük dövlətlərin iqtisadi və siyasi maraqları durduqca, bu prosesin xarakterini və məzmununu dəyişmək mümkün olmayacaq. Buna görə də qlobal liderlik uğrunda gedən mübarizənin mümkün nəticələrini proqnozlaşdıraraq öz dövlətinin beynəlxalq münasibətlər zəncirinin təhlükəsiz, eyni zamanda, təsirli həlqələrindən birinə çevrilməsini təmin etmək ulu öndər Heydər Əliyevin Azərbaycanın milli dövlətçilik tarixində müstəsna xidmətidir.





Ümummilli Liderin siyasi portretinin ən əsas cizgilərindən biri onun zamanı və prosesləri düzgün qiymətləndirməyə imkan verən dərin zəkaya sahib olmasıdır. O, dünyada və regionda cərəyan edən proseslərin təhlükəli məcraya yönəldiyi vaxtda sanki zamanı dayandırmaqla hər şeyi ilkin nöqtədən başlamağı bacardı, Azərbaycan üçün ən çətin anda ən düzgün qərarlar qəbul etdi və SSRİ-nin süqutu nəticəsində dağılan geosiyasi konfiqurasiyada hələ formalaşmamış bir dövləti düşdüyü fəlakətli vəziyyətdən çıxarmağa müvəffəq oldu. Heydər Əliyevin siyasi müdrikliyi ona beynəlxalq münasibətlər sisteminin institusional əsaslarının sarsıldığını görməyə, beynəlxalq arbitr kimi dünya nizamını qorumaq missiyasını üzərinə götürmüş müxtəlif təşkilatların öz funksionallığını itirdiyini dəqiq müəyyən etməyə və dünyanın gündəmini diktə edən güc mərkəzləri ilə bərabərhüquqlu tərəfdaşlıq münasibətləri qurmağa imkan verdi.

SSRİ-nin dağılmasından sonra yaranan dövlətlərdən Azərbaycanı fərqləndirən yalnız özünəməxsus tarixi ənənələri, keçmişi deyil, həm də qarşılaşdığı çağırışların, üzləşdiyi problemlərin mürəkkəb xarakteri oldu. Azərbaycanı tarixin bəlkə də ən həlledici mərhələsində ağır böhrandan qurtaran Ümummilli Liderin bünövrədən qurmağa başladığı müstəqil Azərbaycan postsovet məkanında münaqişə və müharibələrin adi həyat normasına çevrildiyi, qeyri-müəyyənliyin ictimai təfəkkürdə reallıq kimi qəbul olunduğu, keçmişlə bütün bağların qopduğu, gələcəyə aparan körpülərin hələ qurulmadığı bir dövrdə dünyanın siyasi səhnəsinə inamla çıxdı.

1993-cü ildə xalqın çağırışı və təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin təklif etdiyi milli dövlət quruculuğu və müasir inkişaf strategiyası özündə bir sıra vacib komponentləri birləşdirirdi:

- müstəqilliyin təmin edilməsi və müstəqil siyasətin həyata keçirilməsi;
- ictimai-siyasi sabitlik;
- iqtisadi inkişaf və güclü iqtisadiyyat;
- islahatlar və müasir cəmiyyət quruculuğu;
- müasir və güclü ordu quruculuğu;
- suverenlik, ərazi bütövlüyünün bərpası;
- beynəlxalq münasibətlər sisteminə inteqrasiya;
- azərbaycançılıq ideologiyasına əsaslanan milli birlik və həmrəylik;
- milli ənənələrə və tarixi köklərə bağlılıq.

Bu mürəkkəb, taleyüklü məsələlərin həlli üçün təqdim olunan inkişaf strategiyası, ilk növbədə, digər güclərin iradəsindən asılı olmayan və yalnız milli maraqları rəhbər tutan müstəqil siyasətin həyata keçirilməsini, ölkədə separatçılıq və mərkəzdənqaçma meyillərinin qarşısının alınmasını və sabitliyin, təhlükəsizlik mühitinin bərqərar edilməsini, institusional islahatların həyata keçirilməsi yolu ilə müasir dövlət idarəçiliyinin və mütərəqqi ictimai münasibətlərin formalaşdırılmasını, beynəlxalq aləmlə bərabərhüquqlu və etibarlı əlaqələrin qurulmasını, mühüm enerji layihələrinin reallaşdırılması və iqtisadi inkişaf üçün zəruri resursların əldə edilməsini, cəmiyyətin müxtəlif sosial təbəqələri arasında azərbaycançılıq ideologiyasına əsaslanan sıx birliyin təminatını və son nəticədə ölkənin ərazi bütövlüyünün bərpa olunmasını nəzərdə tuturdu. Ulu Öndərin milli ideyaya, milli-mənəvi dəyərlərə dərin bağlılığı, irəli sürdüyü təşəbbüslərin, ideya və təkliflərin, xarici siyasətdə çevik, bir çox hallarda heç də hamının dərhal anlaya bilmədiyi uzaqgörən addımlarının ölkənin milli maraqlarına xidmət etməsinə olan sarsılmaz ictimai etimad Azərbaycanın qurtuluşunun siyasi-fəlsəfi mahiyyətini təşkil edən mühüm amildir.

Müstəqilliyin ilk illərində parçalanmaq və dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmış Azərbaycanı bu fəlakətdən yalnız Heydər Əliyevin qurtara biləcəyini təkcə onun tərəfdarları deyil, rəqibləri də yaxşı anlayırdı.

*Ardı Səh. 4*

# Ulu öndər Heydər Əliyevin milli dövlət quruculuğu və müasir inkişaf strategiyası

Əvvəli Səh. 3

Ölkədə vətəndaş müharibəsi həddinə çatmış silahlı qarşıdurma cəhdlərinə məhz güclü siyasi xadim, praqmatik lider, müdrik dövlət adamı kimi Heydər Əliyevin titanik səyləri nəticəsində qısa müddətdə son qoyuldu, siyasi mübarizə küçə və meydanlardan parlamentə, seçki platformasına transformasiya olundu, ölkədə ictimai-siyasi sabitlik bərqərar edildi.

Məhz Ulu Öndərin müdrik siyasəti sayəsində Azərbaycan regionun ən etibarlı və güclü dövlətlərindən biri kimi özünü dünyaya təqdim etməyə müvəffəq oldu. Birqütblü dünyaya sürətli keçidin ciddi böhran, bir çox hallarda fəlakətlər yaratdığı çətin və qeyri-müəyyən tarixi mərhələdə Azərbaycan özünün Şərq və Qərb arasında körpü funksiyasını bərpa edə bildi. 1990-cı illərdə bir çoxları dünyanın iki fərqli sivilizasiyasını qovuşduran bütün körpülərin yandırılacağını, planetin coğrafiyasından silinəcəyini güman edirdilər. Lakin 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması və sonrakı dövrdə Bakı-Tbilisi-Ceyhan neft kəməri kimi qlobal əhəmiyyət kəsb edən enerji layihələrinin həyata vəsiqə qazanması ilə bu gümanlar yox oldu. Bu, əlbəttə, Heydər Əliyev siyasi dühasının nəinki Azərbaycan və Cənubi Qafqazın, eyni zamanda, bu gün - XXI əsrdə 30 il öncəkindən daha böyük aktuallıq kəsb edən Avropanın təhlükəsizliyinə tarixi töhfəsi kimi qiymətləndirilir.



1995-ci ildə Azərbaycanın yeni Konstitusiyası qəbul olunduqdan sonra cəmiyyət həyatının bütün sahələrində köklü islahatların reallaşdırılmasına başlandı, ölkədə çoxpartiyalı siyasi sistem formalaşdırıldı, fikir plüralizmi, söz və məlumat azadlığı təmin edildi. Azərbaycanda bazar iqtisadiyyatı quruculuğu istiqamətində mühüm addımlar atıldı, neft strategiyasının həyata keçirilməsi nəticəsində ölkənin gələcək inkişafının beynəlxalq zəmanəti və maddi resursları təmin olundu. Təkcə onu qeyd etmək kifayətdir ki, Ulu Öndərin ölkəyə rəhbərliyi dövründə Azərbaycanda həyata keçirilən iqtisadi islahatlar nəticəsində ümumi daxili məhsul 71 faiz artdı. 1993-2002-ci illər ərzində Azərbaycanda istehsal və qeyri-istehsal sahələrinin inkişafına 8,2 milyard manat sərmayə cəlb edildi. Sürətlə artan inflyasiyanın dayandırılması, xarici ölkələrlə ticarət əlaqələrinin genişləndirilməsi, ticarət dövriyyəsinin 1993-cü illə müqayisədə 2,8 dəfə artaraq 3,8 milyard ABŞ dollarına çatması ölkədə davamlı inkişafa imkan yaradan yeni iqtisadi münasibətlər sisteminin qurulmasının nəticəsi idi. Ümummilli Liderin nəticəyə hesablanmış siyasəti sayəsində Azərbaycanın milli inkişaf strategiyasının ən mühüm parametrlərindən biri - güclü milli iqtisadiyyatın qurulması istiqamətində ciddi uğurlar əldə edildi. 2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının I Qurultayında müstəqil dövlətimizin keçdiyi onillik inkişaf yolu haqqında danışan Ulu Öndər deyirdi: "Azərbaycanın biz bir çox ağır və çətin məsələlərini həll etdik və qarşıda duran üfüqləri də çox yaxşı görürük. Azərbaycanın böyük təbii sərvətləri, əlverişli coğrafi-strateji mövqeyi, güclü iqtisadi, intellektual potensialı və azərbaycanlıların yüksək mədəni səviyyəsi müstəqil ölkəmizin gələcəyinin çox xoşbəxt və firavan olmasını təmin edəcəkdir. Əmin ola bilərsiniz ki, bu yol, qarşıda duran üfüqlər, perspektiv tam realdır. Apardığı iqtisadi siyasət sayəsində bir neçə ildən sonra Azərbaycan zəngin ölkələrdən biri olacaqdır".




Ulu öndər Heydər Əliyevin tariximizdə son dərəcə böyük dəyər kəsb edən xidmətlərindən biri də onun yalnız milli inkişaf strategiyasını həyata keçirməklə kifayətlənməməsi idi. Çünki qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün mövcud siyasi kurs davam etdirilməli və bu mənada siyasi-ideoloji varislik qorunub saxlanılmalıydı. Dünya təcrübəsinə nəzər yetirsək görərik ki, bir çox hallarda uğurla inkişaf edən ölkələr məhz mövcud siyasi kursun dəyişdirilməsi nəticəsində tarixi nailiyyətləri əldən vermişdilər. Milli inkişaf xətti ilə ardıcıl və dinamik surətdə irəliləyən Azərbaycanın qarşısında isə güclü dövlət quruculuğunun tamamlanması və keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həlli, ölkənin ərazi bütövlüyünün bərpa olunması kimi mürəkkəb məsələlər dayanırdı.



Cənab İlham Əliyevin xalqın böyük etimadını və dəstəyini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilməsi 2003-cü ildən sonrakı dövrdə ölkəmizlə bağlı öz mənafelərinə uyğun planlar quran bəzi daxili və xarici qüvvələrin ssenarilərinin üstündən xətt çəkdi. Məhz siyasi-ideoloji varislik Prezident İlham Əliyevə Ulu Öndərin milli dövlət quruculuğu strategiyasını çağdaş dövrün yeni reallıqlarından qaynaqlanan, qloballaşan dünyanın mürəkkəb iqtisadi və siyasi şərtlərini nəzərə alan, çoxqütblü nizama keçidin özü ilə gətirdiyi mənfi təzahürləri neytrallaşdırmağa əsas verən ideyalarla zənginləşdirməyə, müstəqil, düşünülmüş və prinsipial siyasət yürütməyə imkan yaratdı.

Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu iqtisadi strategiya nəticəsində Azərbaycan qısa müddətdə yüksək nailiyyətlərə imza atdı. Konkret proqramlar əsasında həyata keçirilmiş genişmiqyaslı quruculuq işləri paytaxt Bakının və bölgələrin simasını tamamilə yeniləşdirdi, regionlarla mərkəz arasında fərq kəskin şəkildə azaldı, ölkədə bütün sahələri əhatə edən nəhəng infrastruktur layihələri reallaşdırıldı. Azərbaycanın enerji təhlükəsizliyi təmin edildi, dövlətimizin başçısı tərəfindən ərzaq təhlükəsizliyi məsələsinin həlli prioritet vəzifələrdən biri kimi müəyyənləşdirildi, bu istiqamətdə ardıcıl və məqsədyönlü tədbirlərin reallaşdırılmasına başlandı.

*Ardı Səh. 5*

# Ulu öndər Heydər Əliyevin

## milli dövlət quruculuğu və müasir inkişaf strategiyası



Əvvəli Səh. 4

2013-cü ildən etibarən öz süni peyklərini orbitə çıxarmağa başlayan Azərbaycan dünyanın kosmik klubunun azsaylı üzvlərindən birinə çevrildi. 2017-ci il sentyabrın 14-də Xəzər dənizinin Azərbaycan sektorunda ”Azəri”, ”Çıraq” yataqlarının və ”Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi, neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması, bu neft yataqlarının işlənilməsinin 2050-ci ilə qədər uzadılması, ”Cənub Qaz Dəhlizi” layihəsinin və onun TANAP, TAP kimi seqmentlərinin reallaşdırılması ”Əsrin müqaviləsi”ndən sonra Azərbaycanın neft strategiyasının yeni uğurları olmaqla yanaşı, həm də ölkəmizin dünya enerji bazarında rolunu xeyli dərəcədə artırdı və Avrasiyanın enerji xəritəsini dəyişdirdi.

Bu gün Cənubi Qafqaz regionunun iqtisadi potensialının 65 faizdən çoxu məhz Azərbaycanın payına düşür. 2003-cü illə müqayisədə Azərbaycan iqtisadiyyatında 3 dəfədən çox artım qeydə alınıb. 2003-2021-ci illər ərzində Azərbaycanda sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, qeyri-neft ixracı 5,2 dəfə, valyuta ehtiyatları 27 dəfədən çox artıb. 2003-cü ildə 1,8 milyard dollar valyuta ehtiyatlarına malik olan Azərbaycan hazırda bu göstəricini 53 milyard dollara çatdırıb ki, bu da birbaşa xarici dövlət borcunu 7,4 dəfə üstələyir. Yoxsulluq səviyyəsi 49 faizdən 6 faizə enib. Azərbaycan iqtisadiyyatına 280 milyard ABŞ dolları həcmində sərmayə yatırılıb ki, bunun da yarısı xarici sərmayədir.

Azərbaycanın mühüm coğrafi mövqeyi, strateji əhəmiyyət kəsb edən nəqliyyat infrastrukturunun dünya standartlarına uyğun inkişaf etdirilməsi, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolunun, yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, müasir hava limanlarının tikilib istifadəyə verilməsi, ölkə və yerli əhəmiyyətli avtomobil yollarının yenidən qurulması Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin fəal iştirakçısına və regionun nəqliyyat-kommunikasiya habına çevrilməsinə şərait yaratdı. Təsadüfi deyil ki, bu gün Avropa İttifaqı Azərbaycanın nəqliyyat infrastrukturuna böyük maraq göstərir.

Sürətlə və dinamik inkişaf edən Azərbaycan milli maraqlara əsaslanan müstəqil siyasət yürüdərək beynəlxalq aləmdə mövqelərini daha da gücləndirməyə nail olub. Ölkəmiz çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi etməklə sivilizasiyalararası və mədəniyyətlərarası dialoqa, qlobal siyasi, iqtisadi, humanitar məsələlərin həllinə öz layiqli töhfələrini verir. 2012-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilən, bu gün Qoşulmama Hərəkatı kimi böyük təşkilata sədrlik edən, Avropa İttifaqı ilə tərəfdaşlıq münasibətlərini inkişaf etdirən, bir çox nüfuzlu beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq əlaqələrinə malik, ikitərəfli və çoxtərəfli tərəfdaşlıq formatlarında fəallığı ilə diqqəti cəlb edən, region ölkələri ilə mehriban qonşuluq, dostluq və səmərəli əməkdaşlıq prinsipləri əsasında əlaqələr qurmuş Azərbaycan beynəlxalq arenada böyük nüfuz sahibi, etibarlı tərəfdaş, mühüm məsələlərin həllində öz prinsipial mövqeyini ortaya qoyan və söz sahibi olan ölkə kimi tanınır.

Azərbaycanın inkişaf strategiyasının uğurla reallaşdırılması, dövlət-vətəndaş münasibətlərinin keyfiyyətcə yeni məzmunla zənginləşdirilməsi və müasir idarəetmə mexanizmlərinin formalaşdırılması, milli həmrəyliyin sosial və ideoloji aspektlərinə praqmatik baxışın yaratdığı yeni milli birlik modeli və nəhayət ölkənin hərbi potensialının gücləndirilməsinə yönəlmiş ardıcıl, məqsədyönlü tədbirlər bir hədəfə - Ermənistanın işğalçılıq siyasətinə son qoyulmasına və ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsinə istiqamətlənmişdi. Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının V Qurultayındakı çıxışında qeyd etdiyi kimi, ”bizim bütün işlərimizin, apardığımız siyasətin, atdığımız addımların fövqündə bu müqəddəs günü yaxınlaşdırmaq və bu günü görmək amalı dururdu”.

Hələ 1999-cu ilin noyabrında Azərbaycan yazıçıları və ziyalıları ilə görüşündə ulu öndər Heydər Əliyev deyirdi: ”1923-cü ildə Dağlıq Qarabağa muxtariyyət verilməsi Azərbaycanın başına bir bəla olub. Düzdür, o vaxtı buranı Ermənistana vermək istəyiblər və Azərbaycanın rəhbərləri çalışıblar və nail olublar ki, qalsın Azərbaycanda. Qalmalıydı, amma muxtariyyət yox. 1923-cü ildə verilmiş muxtariyyət Azərbaycanın içinə qoyulmuş bir bomba idi, nə vaxtsa partlamalıydı”. Faktlar aydın göstərir ki, erməni millətçiləri tarixin bütün mərhələlərində xalqımıza qarşı iddialarla çıxış ediblər və son 200 ildə Azərbaycanın əraziləri hesabına öz dövlətlərini qurmaq, sonrakı mərhələdə isə onu daha da genişləndirmək üçün ardıcıl planlar həyata keçirməyə can atıblar. Azərbaycan SSR-ə 14 illik rəhbərliyi dövründə Heydər Əliyevin nüfuzu və siyasi uzaqgörənliyi bu məkrli planların qarşısına sipər çəkirdi. Ümummilli Lider deyirdi: ”Mən Azərbaycandan gedəndən sonra, təəssüf ki, 1988-ci ildə olan hadisələri başladılar. Xırda-xırda Dağlıq Qarabağa nəzarəti azaltdılar, onlar da gəldi bunu elədi”. 1987-ci ildə Ulu Öndər SSRİ rəhbərliyi tərəfindən vəzifəsindən riyakarcasına uzaqlaşdırıldıqdan sonra Ermənistan və dünya erməniliyi öz çirkin niyyətlərini reallaşdırmaq üçün tarixi fürsət əldə etdilər. Üstəlik, 1990-cı ilin əvvəllərində Azərbaycanda AXC-Müsavat hakimiyyətinin səriştəsizliyi, xəyanəti, ölkədə hökm sürən hərc-mərclik, özbaşınalıq bu planların daha asanlıqla həyata keçməsinə əlverişli şərait yaratdı. Lakin həmin dövrdə bu planın müəllifləri güman etmirdilər ki, Heydər Əliyev yenidən Azərbaycana qayıdacaq, dövlətimizi və xalqımızı məhv olmaqdan xilas edəcək, Ermənistana işğalın nəticələrini rəsmiləşdirməyə imkan verilməyəcək. Cəmi on ilə Azərbaycan yenidən ayağa qalxacaq, inkişaf edəcək və sonda öz qəti sözünü deyəcək. Buna görə də 2020-ci ilin 44 günlük Vətən müharibəsində qazanılmış tarixi Zəfər mahiyyət etibarilə ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi və Prezident İlham Əliyevin daha da təkmilləşdirərək müasirləşdirdiyi milli dövlətçilik strategiyasının ən böyük təntənəsi oldu.

”Son 17 il ərzində mənim fəaliyyətimdə ölkəmizin gücləndirilməsi, beynəlxalq müstəvidə mövqelərimizin möhkəmləndirilməsi, ölkə daxilindəki proseslərin müsbət məcrada getməsi əsas vəzifə idi. Heç bir təzyiq, heç bir təhdid məni bu yoldan döndərə bilmədi. Çünki bir amalım var idi - güclü Azərbaycan qurmaq, torpaqlarımızı işğaldan azad etmək!”. Azərbaycan Prezidentinin 17 illik mübarizəsinin, əzminin, siyasi iradə və qətiyyətinin bütün fəlsəfəsi xalqa ünvanladığı müraciətlərdən birində yer almış bu cümlələrdə öz əksini tapıb.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində əldə etdiyi möhtəşəm Zəfər Azərbaycan xalqı üçün böyük mənəvi əhəmiyyətə malik, eyni zamanda, bütün regionda yeni reallıqlar yaradan mühüm tarixi hadisədir. Bu, xalqımızı, dövlətçiliyimizi məhv olmaqdan xilas edərək sabit inkişaf yoluna çıxaran ümummilli lider Heydər Əliyevin güclü, müstəqil, suveren Azərbaycan naminə başladığı və Prezident İlham Əliyevin müvəffəqiyyətlə başa çatdırdığı milli inkişafımızın taleyüklü, şanlı bir mərhələsidir. 2020-ci il noyabrın 8-də Qarabağın tacı olan Şuşanın azad edilməsi ilə bağlı xalqa müjdəsini çatdıran Prezident İlham Əliyev fikirlərini belə ifadə etmişdi: ”Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim”. Prezident İlham Əliyevin bu sözləri ata vəsiyyətinin yerinə yetirilməsi ilə yanaşı, həm də Heydər Əliyevin əsasını qoyduğu və sonrakı dövrdə davam etdirilən müdrik siyasətin, milli dövlət quruculuğu və müasir inkişaf strategiyasının təntənəsi kimi anlaşılmalıdır.

”Şuşasız Qarabağ, Qarabağsız, ümumiyyətlə, Azərbaycan yoxdur” deyən ulu öndər Heydər Əliyevin qurduğu müasir milli dövlətimiz indi özünün yeni inkişaf mərhələsini yaşayır. Mürəkkəb və ziddiyyətli geosiyasi proseslərin sürətlə cərəyan etdiyi, qarşıdurmaların və münaqişələrin kəskinləşdiyi dünyada indi ölkəmiz üstün mövqeyə, qalib dövlət nüfuzuna sahibdir. Öz iqtisadi qüdrətinə arxalanan Azərbaycan işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq işlərini uğurla davam etdirir. Azərbaycanın mədəniyyət paytaxtı Şuşa başda olmaqla, bütün ərazilərimiz mədəni-tarixi irsimiz qorunmaqla, müasir infrastruktur yaradılmaqla tezliklə regionumuz cənnət guşələrindən birinə çevriləcək və dayanıqlı məskunlaşma təmin ediləcək. Həyata keçirilən layihələr bu əraziləri yaxın müddətdə sülh və əməkdaşlıq bölgəsi kimi dünyaya tanıdacaq.

Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu milli dövlətçilik ideyası özündə real müstəqillik, suverenlik, milli-mənəvi dəyərlərə bağlılıq və müasir inkişaf kimi vacib prinsipləri üzvi şəkildə birləşdirdi. Ulu Öndərin qurduğu və azərbaycançılıq ideologiyasına əsaslanan milli dövlətimiz cəmiyyətin hər bir üzvü, dünya azərbaycanlıları üçün ideoloji bünövrə, onları vahid ideya ətrafında birləşdirən, mənafelərini qoruyan, müdafiə və ümumi məqsəd uğrunda səfərbər edən qürur mənbəyimizdir. Buna görə də əminliklə demək olar ki, hər bir dövlətin qüdrəti onun iqtisadi potensialı və hərbi gücü ilə yanaşı, həm də xalqın birliyi, həmrəyliyi ilə ölçülür. 44 günlük Vətən müharibəsi əyani şəkildə göstərdi ki, müstəqillik illərində əldə edilmiş milli birliyimiz, mənəvi-ideoloji vəhdətimiz bizim ən qiymətli sərvətlərimizdən biridir.

Ulu öndər Heydər Əliyev demişdi: ”Biz bu çətin günləri keçib gedəcəyik, müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaq, hər bir Azərbaycan vətəndaşı özünün bu müstəqil dövlətə mənsub olduğunu böyük qürur hissi ilə bəyan edəcəkdir”. Bu gün Azərbaycanın ərazi bütövlüyü, Şuşada qürurla dalğalanan milli bayrağımız, milli dövlətimiz, müstəqilliyimiz, suverenliyimiz, dünya xalqları arasında öz layiqli yerimizi tutmaq naminə apardığımız 30 illik mücadilənin qürur doğuran bəhrəsi və məntiqi nəticəsidir. Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşərək müstəqil dövlətimizi qorumaq, yaşatmaq və daha da inkişaf etdirmək bizim ən əsas vəzifəmizdir.

***Samir Nuriyev***
***Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri***

# 30 il sonra tam fərqli 8 MAY...



## İlham Əliyev: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik"

**Bəli, hər il 8 may tarixini hüznlə qarşılayırdıq. Ancaq bu gün - 30 ildən sonra fəxr və qürur hissə ilə deyirik ki, artıq Şuşanın işğal günü yoxdur. Tarixi şəhərimiz 8 mayı azad şəkildə qarşılayır. Azərbaycan ordusu nəinki düşməni diz çökdürərək onların 29 il qeyd etdikləri işğal ”bayram”larını - 8 may gününü tarixdən sildi, Müzəffər Ali Baş Komandan əsl sərkərdəlik, siyasi iradə nümayiş etdirərək bizi həsrətində olduğumuz yurd yerlərimizə, tarixi ərazilərimizə qovuşdurdu.**

29 ildən sonra ikinci dəfədir ki, 8 may tarixini Şuşanın işğal edildiyi gün kimi yox, işğaldan azad olunan, tikilən, qurulan və Azərbaycanın mədəniyyət paytaxtı kimi qarşılayırıq. Bu il ermənilərin təqvimdə Şuşanın zəbt edildiyi gün kimi qeyd etdikləri 8 mayı hüznlə deyil, sevinclə yaşayırıq. İşğal gününün ötən il XXI əsrin müharibəsini aparan ordumuz tərəfindən tarixin zibilliklərinə atılması gələcək nəsilləri də qürurlandıracaq!

Çünki Azərbaycan hərbçiləri bir gecədə Şuşa qalasını, sıldırımlı qayaları, aşılmaz dağları fəth etməklə ordumuzun hansı potensialda olduğunu, Vətən, torpaq anlayışının qəhrəman əsgərlərimiz, xalqımız üçün nə qədər böyük məna kəsb etdiyini bir daha sübut etmiş oldu. Təsadüfi deyil ki, Şuşaya qədər işğaldan azad edilən ərazilərdən qaçan, itkilər verərək geri çəkilən erməni hərbçiləri haqqında yaradılan mif Şuşada birdəfəlik darmadağın edildi. Çünki 44 günlük müharibənin gedişində Azərbaycan ordusunun guya müasir texnikalar, PUA və digər üstünlüklər sayəsində uğurla irəlilədiyi fikirləri ortaya atılsa da, Şuşaya heç bir ağır texnikadan istifadə etmədən daxil olan hərbçilərimiz burada əlbəyaxa döyüşlərdə düşmənə yerini göstərməyi bacardı, işğalçılar qısa müddətdə darmadağın edildi.

1992-ci il 8 mayda itirdiyimiz Şuşa 28 il sonra 2020-ci il 8 noyabrda Ali Baş Komandanımızın rəhbərliyi hər günü bir tarixi qələbə olan 44 gün davam edən İkinci Vətən Müharibəsində düşmənə ”Dəmir yumruğun” zərbəsi ilə qürur yerimiz - Şuşamız azad edildi! Azərbaycanın 28 illik ŞUŞA yarası sağaldı! Bu gün Azərbaycan bayrağı Şuşada dalğalanır.

”Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 8-də Şəhidlər Xiyabanında Azərbaycan xalqına müraciətində deyib. Müzəffər Ali Baş Komandan İlham Əliyevin milli qürurumuz olan Şuşanın azad olunması haqqında verdiyi müjdə Böyük Qələbəmizi təmin edən tarixi hadisədir. Yaşa, Cənab Ali Baş Komandan! Yaşa, Güclü Azərbaycan Ordusu! Yaşa, Rəşadətli zabit və əsgərlərimiz! Gözün aydın, AZƏRBAYCAN! ŞUŞA bizimdir! Qarabağ Azərbaycandır!

Azərbaycan bəlkə də son bir əsrdə bu qədər sevinc, qürur yaşamamışdı, bayrağa bu qədər sevgi görməmişdik. Bu tarixi müjdəyə sevinən xalqımız Azərbaycanın bütün şəhər və bölgələrində üçrəngli bayraqlarımız dalğalandıraraq bir daha Bayrağımıza, qələbəmizə olan sevgilərini böyük coşqu ilə nümayiş etdirdilər. Şuşaya bayrağımızın sancıldığı 2020-ci ilin 8 noyabr günü Azərbaycan tarixinə əbədi həkk olundu. Noyabrın 9-da isə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev özünün ”Twitter” hesabında Müzəffər Azərbaycan Ordusunun 72 kəndin, 1 qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyini bildirməklə, bir daha göstərdi ki, Ali Baş Komandanımızın, Azərbaycan Ordusunun, Azərbaycan əsgərinin, Azərbaycan xalqının birliyinin, gücünün qarşısında heç kəs tab gətirə bilməz. Budur, Azərbaycanın, hər bir azərbaycanlının Prezidenti olmaq! Budur, dünya səviyyəli LİDER olmaq!

### ”Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq!

### Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”

Noyabrın 10-da isə 30 ildən çox gözlədiyimiz ”Qarabağ Azərbaycandır! NİDA. BAŞQA YOL YOXDUR! Bu nidanı noyabrın 10-da üçtərəfli - Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan Bəyanat uzun illər davam edən işğala son qoydu. Ancaq yenə də Ermənistanın baş naziri Paşinyan Bəyanata imza atmaqdan imtina edib. Ali Baş Komandanımız noyabrın 10-da xalqa müraciətində bildirdiyi kimi: ”Paşinyan məcbur olub bu bəyanata öz imzasını atır. Amma çox miskin, çox acınacaqlı durumda. Mən isə böyük fəxarət və sevinc hissi ilə bu bəyanata öz imzamı atmışam. Hesab edirəm ki, bu bəyanatın imzalanmasının səbəbi noyabrın 9-da - Dövlət Bayrağı Günündə bizim növbəti şanlı hərbi qələbəmiz olub. Çünki noyabrın 9-da 72 yaşayış məntəqəsini Azərbaycan Ordusu işğalçılardan azad edib. Şuşanın azad edilməsi, noyabrın 9-da 72 yaşayış məntəqəsinin azad edilməsi və sentyabrın 27-dən bu günə qədər 300-ə yaxın yaşayış məntəqəsinin azad edilməsi ilə Ermənistan ordusunun belini qırmışıq. Çünki bu bəyanat uzun illər davam edən işğala son qoyur. Bu bəyanat imkan verir ki, hələ də işğal altında olan digər rayonlarımızı - Ağdam, Laçın, Kəlbəcər rayonlarını qan tökülmədən qaytaraq. Qısa bir müddət qoyulur, bu ayın sonuna qədər bu rayonlar bizə qaytarılır. Bu, böyük xoşbəxtlikdir. Mən fürsətdən istifadə edərək, Ağdam, Laçın, Kəlbəcər rayonlarının sakinlərini, bütün Azərbaycan xalqını bu münasibətlə təbrik edirəm”.

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə erməni riyakarlığından danışaraq bildirirdi ki, Azərbaycan xalqının səbri ilə oynamayın: ”Siz Azərbaycan xalqını tanımırsınız, siz tanıyacaqsınız bizi, amma gec olacaq. Düz yola gəlin, çıxın bu torpaqlardan, bu torpaqlar sizə mənsub deyil. Amma nə etdilər? Orada qanunsuz məskunlaşma aparmaq üçün beynəlxalq hüququ, beynəlxalq konvensiyaları, o cümlədən Cenevrə konvensiyalarını kobudcasına pozaraq nümayişkaranə şəkildə xaricdən erməniləri gətirib özü də məhz Şuşaya ki, bizi incitsin. Məhz Şuşada o dəstə başçısı hansı ki, indi deşik axtarır gizlənməyə, xunta başçısı özünə andiçmə mərasimi keçirmişdir və Ermənistan baş naziri gedib orada iştirak edib. Bu, bizə sataşmaq deyildimi? Bunun hesabını sizdən soruşan olmayacaqdımı?! Hesabını soruşduq, diz çökdürdük, diz üstə qoyduq! Onun-bunun ətəyindən yapışıb bu 40 gündən çox bir müddətdə adam qalmayıb ki, zəhləsini tökməsin, yardım istəməsin, özünü alçaltmasın. Biz alçaltmışıq onu, əcəb də etmişik. Bizim üçün müqəddəs olan Şuşa şəhərinin Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi ki, bu gün gələcək, cəzasını alacaq, siçan kimi gizlənib bax bu sənədi götürüb ağlaya-ağlaya imzalayacaq. Yerini göstərdik, dərsini verdik. Qovmuşuq onları torpaqlarımızdan, iti qovan kimi qovmuşuq. Demişdim ki, qovacağıq, iti qovan kimi qovacağıq və qovmuşuq, iti qovan kimi qovmuşuq. Qorxularından indi bu sənədə imza atır, bilir ki, biz Ağdama da, Kəlbəcərə də, Laçına da gələcəyik. Heç kim bizi saxlaya bilməz. Hər kəs bizim gücümüzü gördü, hər kəs bizim dəmir yumruğumuz nədir, anladı. Ona görə qovmuşuq onları, əcəb də etmişik”.

### Ulu Öndərimizin dediyi kimi, ”Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə, Azərbaycan yoxdur”

Bəli, o gün gəldi, müjdə olsun, gözəl Şuşa, cənnət Şuşa. Azərbaycan Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev müraciətində demişdir: ”Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”.

Ali Baş Komandanın tarixi müraciətindən: ”Dəfələrlə Azərbaycan xalqına müraciət edərək düşmənə yumruq göstərmişdim, yumruq göstərmişdim. Demişdim ki, bu yumruq elə belə yumruq deyil. Bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq. Mən bütün bu illər ərzində - 17 il ərzində Azərbaycan xalqının dəstəyini hiss etmişəm, görmüşəm, inamını, mənə olan xoş münasibəti görmüşəm. Bu, mənə güc verir. Bu, mənim siyasətim üçün əvəzolunmaz dəstəkdir. Həmişə Azərbaycan xalqını əmin edirdim ki, mən Vətənə, doğma xalqıma ləyaqətlə, sədaqətlə xidmət edəcəyəm. Şadam ki, sözümün üstündə durmuşam. Həmişə olduğu kimi, sözümə sadiq olmuşam. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir”.

Bu gün artıq təqdir olunası haldır ki, Azərbaycan Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşaya təyin edildi. Bundan əlavə, Prezident İlham Əliyevin 2021-ci il mayın 7-də imzaladığı sərəncamla Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan olundu. Ölkə başçısının tapşırığına uyğun olaraq, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində 32 ildən sonra Heydər Əliyev Fondu tərəfindən təşkil olunan ”Xarıbülbül” musiqi festivalı Şuşanın əsrarəngiz Cıdır düzündə keçirildi. 2021-ci il 14 yanvar tarixindən - Prezidentin Şuşa səfərindən etibarən Şuşanın bərpası başlandı və qısa müddət ərzində böyük işlər görüldü. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsi bərpa olundu. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Vaqifin məqbərəsi, Vaqifin büstü yenidən açıldı, Üzeyir Hacıbəylinin abidəsi yenidən qoyuldu, Üzeyir Hacıbəylinin dağıdılmış evinin bərpasına başlanıldı, Bülbülün ev muzeyinin açılışı baş tutdu, Natəvan bulağı bərpa edildi. Prezident İlham Əliyevin göstərişi ilə ermənilər tərəfindən güllələbaran edilmiş dahi şəxsiyyətlərimizin - Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstləri gətirildi və mərkəzi meydanda qoyuldu. Üç məsciddə təmir-bərpa işləri başlandı. Məscidlərin təmirini yenə də Heydər Əliyev Fondu öz üzərinə götürmüşdür. ”Qarabağ” və ”Xarıbülbül” otelləri istifadəyə verildi. Şuşanın baş planı təsdiq edildi, yeni yaşayış kompleksinin təməli qoyuldu, 2022-ci il ”Şuşa İli” elan edildi.

### Şuşa həmrəylik məkanı - Dünya Azərbaycanlılarının Zəfər Qurultayı

Aprelin 22-də isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Ordumuzun düşmən işğalından azad etdiyi, Qarabağın döyünən ürəyi, Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşa şəhərində zəfər yolu ilə gələn 65 ölkəinin 400 nəfərdən çox diaspor nümayəndəsinin birləşdirən Dünya Azərbaycanlılarının Zəfər Qurultayı keçirildi. Ali Baş Komandanımızın dediyi kimi: ”Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır”.

Bəli, 8 mayda itirdiyimiz Şuşa 30 il sonra 8 noyabrda Ali Baş Komandanımızın rəhbərliyi ilə geri qaytarıldı. Əziz Şuşa, 30 ildən sonra 8 mayı azad qarşılayırsan!

Dövlət başçımızın dediyikimi: ”Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”. Bəli, 8 noyabr 8 may qara tarixi yer üzündən sildi.

***RƏFİQƏ KAMALQIZI***

# Çoxəsrlik tariximizin
## Heydər Əliyev dövrü dövlətçilik salnaməsidir





Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun "Yeni Azərbaycan" qəzetinə verdiyi müsahibəni təqdim edirik.

***- Tahir müəllim, mayın 10-u müstəqil Azərbaycanın banisi, xalqımızın ümummilli lideri, müdrik dövlət xadimi Heydər Əliyevin anadan olmasının 99 illiyi tamam olur. Siz Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi vaxt, daha dəqiq desək, Heydər Əliyevin müvafiq sərəncamı əsasında rəhbər vəzifədə çalışan şəxslərdənsiniz. Ümummilli liderin Azərbaycan xalqı və dövləti üçün xidmətləri haqqında nə söyləmək olar?***

- Şübhəsiz ki, ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri misilsizdir. O, müstəqil dövlətimizin qurucusu, Azərbaycan xalqının xilaskarı, dünya azərbaycanlılarının Ümummilli Lideridir. Ulu Öndərin tarixi xidmətləri, milli məzmunlu, bəşəri xarakterli fəaliyyəti bir dövrü deyil, bir-birindən kəskin fərqlənən iki mərhələni - həm SSRİ dönəmini, həm də müstəqillik illərini əhatə edir. Şübhəsiz ki, o, fəaliyyətinin bütün mərhələlərində Azərbaycanın inkişafına, milli həmrəyliyin təmin olunmasına, gücləndirilməsinə, dövlət maraqlarının qorunmasına və dövlətçilik ənənələrinin yaşadılmasına xidmət edən böyük tarixi nailiyyətlərə imza atıb. 1969-cu ilin 14 iyulunda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyev hələ SSRİ dövründə milli-mənəvi dəyərlərimizin, dilimizin qorunub saxlanılması, respublikamızın perspektiv inkişafı üçün möhkəm təməllər yaratmağa müvəffəq olub. 1969-cu ildən başlayan böyük inkişaf və rifah yolu Azərbaycanın gələcək tərəqqisinin əsaslarını yaradıb. Ümummilli lider Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Sovetinin Sədri seçildikdən sonra atdığı addımlar da xalqımızın gələcəyə yeni və mütərəqqi baxışının formalaşmasında, müstəqillik ideyasının əxz olunmasında, mənimsənilməsində, milli həmrəyliyin təmin edilməsində xüsusi rol oynayıb. Ulu Öndərin təşəbbüsü ilə ilk dəfə olaraq Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağımızın qaldırılması, Naxçıvan MSSR adından "Sovet Sosialist" ifadəsinin çıxarılması, 1990-cı il yanvar ayının 20-də Bakıda törədilmiş qanlı hadisələrə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılmasına dair keçirilən referendumda iştirak etməməsi haqqında qərarın qəbul edilməsi, 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması dövlətçilik tariximizin ən mühüm hadisələri sırasında yer alır. Bu, Heydər Əliyevin fəaliyyətinin məhz milli maraqlara, dövlətçilik ənənələrinə və xalqın ali mənafeyinə əsaslandığını göstərən çox mühüm faktlardandır.

Müstəqillik dövründə ölkəmizin ağır vəziyyəti, xalqın Ulu Öndərə olan inam və etimadı Onun respublikamızın qurtuluşu naminə siyasi məsuliyyəti öz üzərinə götürməsinə zərurət yaradıb. Heydər Əliyev respublikamızın ziddiyyətlər və qarşıdurma məkanına çevrildiyi, mürəkkəb regional və beynəlxalq proseslərin cərəyan etdiyi bir şəraitdə Azərbaycan xalqını xilas etdi, faciə və fəlakətlərin qarşısını aldı, ölkəmizin formal deyil, gerçək müstəqilliyini təmin etdi. 1993-cü ildə xalqın təkidli tələbinə cavab olaraq Bakıya qayıdan Ümummilli Lider müstəqilliyimizin xilası, dövlətçilik ənənələrimizin, xalqımızın milli qürur və ləyaqətinin bərpası naminə tarixi missiyasını yerinə yetirməyə başladı.

Həmin ilin oktyabr ayında Azərbaycan Prezidenti seçilən Heydər Əliyev ölkəmizin inkişaf istiqamətlərini dövrün xüsusiyyətlərinə və zamanın tələblərinə müvafiq olaraq dəqiq müəyyənləşdirdi, Azərbaycanın sabitlik adasına, təhlükəsizlik məkanına, inkişaf diyarına çevrilməsini təmin etdi. Bu, Ulu Öndərin xilaskarlıq missiyası, Azərbaycanın isə Qurtuluşu idi.

Ona görə də haqlı olaraq qeyd edilir ki, müasir Azərbaycan reallığı məhz Heydər Əliyevin adı, siyasəti və fəaliyyəti ilə bağlıdır. Bu gün həm müstəqillik dövrünün, həm də çoxəsrlik tariximizin zirvə hadisələrinə şahidlik edən qədirbilən Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərini olduqca yüksək qiymətləndirir.

Qeyd etdiyiniz kimi, ulu öndər Heydər Əliyevin müvafiq sərəncamı əsasında 1999-cu ildə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini təyin edilmişdim. Bu, mənim üçün böyük etimad və şərəf idi. Bu fakt, eyni zamanda, Heydər Əliyevin gənc kadrlara yer və əhəmiyyət verməsinin, inam və etimad göstərməsinin ifadəsi idi. Ümummilli lider həm SSRİ dövründə, həm də müstəqillik illərində kadr siyasətinə böyük önəm verir - xüsusi diqqət yetirirdi. Kadr siyasəti Heydər Əliyevin təkcə strateji kursu deyil, həm də dövlətçilik konsepsiyasının mühüm tərkib hissəsi idi...

***- Yeri gəlmişkən, analitiklər, tədqiqatçılar Ümummilli Liderin güclü dövlət konsepsiyasını tarixi Zəfərə aparan yol kimi səciyyələndirirlər...***

- Tamamilə doğru yanaşmadır. Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması - torpaqlarımızın işğaldan azad edilməsi Ulu Öndərin siyasi kursunun ən mühüm strateji prioriteti olub. Biz Heydər Əliyevin müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi dövrü intibah dönəmi kimi xarakterizə edirik. Bu mərhələ, eyni zamanda, güclü dövlət quruculuğu dönəmi və böyük Zəfərə aparan yoldur. Siyasətin sirlərinə dərindən bələd olan Ümummilli Lider güclü dövlət quruculuğuna nail oldu. İctimai-siyasi sabitliyin, vətəndaş birliyinin və milli həmrəyliyin təmin olunması, mütərəqqi iqtisadi inkişaf strategiyasının, ordu quruculuğu konsepsiyasının hazırlanması və uğurla tətbiq olunması Azərbaycanın milli gücünün artırılmasında və hədəfə doğru inamla irəliləməsində mühüm rol oynadı. Digər tərəfdən, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qətnamə və bəyanatların qəbul edilməsinə nail olunması ölkəmizin beynəlxalq mövqeyinin möhkəmlənməsinə, diplomatik müstəvidə üstünlük qazanmasına xidmət göstərdi. Ən mühüm amil isə siyasi varisliyin təmin edilməsi oldu. Zamanın Ulu Öndərə başa çatdırmağa imkan vermədiyi işləri Onun siyasi varisi - cənab İlham Əliyev yerinə yetirdi. Çoxəsrlik dövlətçilik tariximizin ən qüdrətli Azərbaycanı Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin siyasətinin nəticəsidir...

***- Tahir müəllim, maraqlı bir məqama toxunduz - siyasi varislik. Tarixi təcrübə göstərir ki, siyasi varisliyin təmin olunması cəhdi heç də hər ölkədə uğurlu olmayıb, yaxud sonradan uğur gətirməyib. Bu məsələdə Azərbaycan təcrübəsinin uğurlu olması nə ilə əlaqədardır?***

- Ümummilli liderimiz 2003-cü ildə xalqa müraciəti zamanı İlham Əliyevə özü qədər inandığını qeyd etmişdi. Azərbaycan xalqı isə Heydər Əliyevin sözünə inanırdı. Bu inam həm də cənab İlham Əliyevin o zamana qədər müxtəlif vəzifələrdə özünü doğrultmasından qaynaqlanırdı. Ona görə də xalqımız Heydər Əliyev siyasətinə növbəti dəfə dəstək verdi, cənab İlham Əliyevə etimad göstərdi. İnam və etimad isə özünü doğrultdu.

Ardı Səh. 8

# Çoxəsrlik tariximizin

# Heydər Əliyev dövrü dövlətçilik salnaməsidir

Əvvəli Səh. 7

Siyasi varisliyin təmin olunması Heydər Əliyev irsinin parlaq təzahürü - Azərbaycanın dövlətçilik tarixinin müstəsna siyasi hadisələrindəndir. Ulu Öndər özündən sonra Azərbaycan dövlətini müstəqil, milli maraqlara və milli-mənəvi dəyərlərə, xalqın ali iradəsinə əsaslanan siyasət həyata keçirməklə zirvələrə daşıyacaq Lider yetişdirməklə dövlətçilik tariximizdə ən böyük xidmətlərindən birini göstərdi. Ölkəmizin inkişafında yeni bir mərhələnin əsası qoyuldu. Azərbaycan öz iqtisadi, siyasi gücü, hərbi qüdrəti ilə, xalqımızın mübarizə ruhu və əzmi ilə yeni zirvələri fəth etməyə doğru inamla irəliləməyə başladı. Ötən müddət ərzində qazanılan nailiyyətlər lider-xalq birliyi, xalqın öz qətiyyətli, milli maraqlara, müasir çağırışlara adekvat siyasət həyata keçirən, dövlətin strateji mənafelərini üstün tutan Liderini birmənalı və prinsipial olaraq dəstəkləməsi sayəsində mümkün olub. Cənab İlham Əliyev öz missiyasını "Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar" - çağırışı ilə ifadə etmişdi. Zaman Azərbaycanın Liderinin Vətənə, xalqa və dövlətə sədaqət andını şərəflə və ləyaqətlə yerinə yetirməsinə şahidlik etdi. Cənab İlham Əliyev bir daha sübuta yetirdi ki, Onun sözü imzası qədər dəyərli, dəyərli olduğu qədər də keçərlidir. Ən əsası, sonuncu prezident seçkilərindən sonra 2018-ci il aprelin 18-də keçirilən andiçmə mərasimində Azərbaycanın ərazi bütövlüyünün bərpasının zəruriliyinə bir daha toxunan cənab İlham Əliyev qətiyyətli Lider, cəsur Sərkərdə, polad iradəli Ali Baş Komandan kimi fəaliyyətini davam etdirərək ali məqsədə nail olaraq strateji hədəfə çatdı və torpaqlarımız işğaldan azad edildi. Sözsüz ki, bu, xalqımızın çoxəsrlik, zəngin və şərəfli dövlətçilik tarixinin ən parlaq səhifəsi, müstəsna siyasi hadisə və dövlətçilik tariximizdə bənzəri olmayan Zəfər salnaməsidir. Bu, Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin siyasətinin real nəticəsidir.

Əlbəttə, yeni mərhələ - XXI əsrin üçüncü onilliyi Azərbaycanın qarşısında yeni hədəflər və vəzifələr müəyyənləşdirir. Şübhəsiz ki, qalib xalq olaraq yaşamaq məğlub toplum kimi siyasi varlığını sürdürməkdən şərəfli olmaqla yanaşı, daha çətin və daha məsuliyyətlidir. O səbəbdən hərb meydanında qazanılmış Zəfəri davamlı prosesə çevirmək və Qələbəni diplomatiya meydanında, quruculuq müstəvisində möhkəmləndirmək vacibdir, tarixi zərurətdir. Bu istiqamətdə və bütün cəbhələrdə - informasiya-təbliğat və diplomatiya müstəvisində, iqtisadi və siyasi sferada məqsədyönlü fəaliyyət uğurla davam etdirilir. Digər tərəfdən, bu gün işğaldan azad edilmiş ərazilərdə nəhəng bərpa-quruculuq işləri görülür, Müzəffər Ali Baş Komandan İlham Əliyev ilə Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həmin torpaqlara hər bir səfəri Zəfər yürüşünün davam etdiyini göstərir. Qalib Azərbaycan qısa müddət ərzində və yüksək səviyyədə Böyük Qayıdışı, dayanıqlı və layiqli məskunlaşmanı təmin edəcək. Bu, tariximizin ikinci Böyük Qayıdışıdır. 15 iyun 1993-cü ildə Heydər Əliyevin Qayıdışı, Azərbaycanın Qurtuluşu ilə başlayan modern dövlət quruculuğu bizi tarixi Zəfərə apardı. Tarixi Zəfər isə Böyük Qayıdışa, hərbi-siyasi əsarətdən xilas edilmiş yurd-yerlərimizə qayıdışa imkan yaratdı. Əminliklə söyləmək olar ki, öz ərazi bütövlüyünü təmin etmiş, bölgənin lider dövlətinə - regional güc mərkəzinə çevrilmiş Azərbaycan modern dövlət quruculuğunun və tarixi Qələbənin açdığı Zəfər yolu ilə yeni zirvələrə yüksələcək, yenə də tarix yazacaq, adını tarixə əbədi yazdıracaq.

***- Yeni Azərbaycan Partiyasının Ümummilli Liderimizin bioqrafiyasında yeri və rolu müstəsnadır. Şübhəsiz ki, ümumxalq partiyası Heydər Əliyevin Azərbaycan xalqına növbəti siyasi mirasıdır...***

- Haqlı olaraq müstəqil dövlətçiliyimizin dönüş nöqtələrindən hesab edilən hadisələrdən biri də Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. YAP olduqca mürəkkəb şəraitdə, ictimai tələb əsasında və siyasi zərurətdən yaranmış partiyadır. Bilirsiniz ki, həmin dövrdə "ya olum, ya ölüm" dilemması qarşısında qalan Azərbaycan xalqı ümidini məhz müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasətçi Heydər Əliyevə bağlamışdı. Həmin tarixə qısa ekskurs etmək məqsədəuyğundur. Bilirsiniz ki, 1992-ci il oktyabrın 16-da bir qrup Azərbaycan ziyalısı Heydər Əliyevə müraciət etdi, Yeni Azərbaycan Partiyasının yaradılması təklif olundu. Ümummilli lider Heydər Əliyev isə ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda "Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər", - deyə vurğulamışdı. Bu, ümummilli lider Heydər Əliyevin növbəti dəfə xalqın və dövlətin gələcəyi, dövlətçiliyimizin xilası naminə siyasi məsuliyyəti öz üzərinə götürməsi, yüksək vətənpərvərlik və milli təəssübkeşlik nümunəsi idi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda YAP-ın təsis konfransının keçirilməsi, ulu öndər Heydər Əliyevin partiyanın Sədri seçilməsi xalqımızın gələcək taleyini, ölkəmizin perspektiv inkişafını müəyyənləşdirən çox mühüm, əlamətdar hadisə oldu. Güclü lider ətrafında yaradılan Yeni Azərbaycan Partiyası qısa müddət ərzində xalqı öz ətrafında sıx birləşdirdi və siyasi səhnədə yüksəlişə keçərək layiqli yer tutdu.

Yeni Azərbaycan Partiyasının tarixi müstəqil Azərbaycan dövlətinin inkişaf salnaməsidir. Çünki müasir, müstəqil Azərbaycanın tərəqqisi, möhtəşəm tarixi nailiyyətlər qazanaraq güclü - qüdrətli dövlətə çevrilməsi Yeni Azərbaycan Partiyası ilə bilavasitə bağlıdır. Ulu Öndərin siyasi mirası olan YAP 30 ilə yaxın müddət ərzində nümunəvi, zəngin və şərəfli yol keçmişdir. Ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi, iqtisadi, ictimai və demokratik inkişafı istiqamətində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, çox mühüm tarixi təşəbbüslərə və müvəffəqiyyətlərə imza atmışdır. Bu gün sıralarında 760 mindən çox vətəndaşı, cəmiyyətin bütün təbəqələrindən olan fəal, intellektual və vətənpərvər insanları birləşdirən partiyamızın bütün seçkilərdə möhtəşəm qələbə qazanaraq, sözün əsl mənasında, qələbələr partiyasına çevrilməsi də bu reallığın təsdiqidir. Vətən müharibəsində qazanılmış tarixi Zəfərdən sonra istər ölkədə, istərsə də beynəlxalq müstəvidə yaranmış yeni reallıqlar fonunda YAP-ın cari il martın 5-də baş tutmuş VII qurultayı partiyamızın və ölkəmizin inkişafında yeni mərhələnin əsasını qoyub. Qurultayda partiyamızın Sədri, dövlət başçısı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulmuş, eləcə də strateji prioritetlərdən irəli gələn vəzifələrin ardıcıl və məqsədyönlü şəkildə yerinə yetirilməsi Azərbaycanın yeni dönəmdə davamlı uğurlar əldə etməsinə yeni imkanlar, dayanıqlı, etibarlı və möhkəm zəmin yaradacaq.



***- Partiyanın fəaliyyətinin çox mühüm istiqamətlərindən birini Heydər Əliyevin siyasi irsinin öyrənilməsi və təbliği təşkil edir...***

- Bəli, tamamilə doğrudur, YAP-ın Proqramında Heydər Əliyev irsinin təbliği və təşviqi partiyanın əsas hədəflərindən biri kimi əks olunub. Qeyd edilib ki, Azərbaycanı tərəqqiyə aparan Heydər Əliyev irsi indiki və gələcək nəsillər üçün zəngin xəzinə, Vətənə, xalqa və dövlətə xidmət nümunəsidir. Heydər Əliyev irsinin təbliği xüsusilə gənc nəslin dövlətçilik və vətənpərvərlik ruhunda formalaşması baxımından çox vacibdir. Yeni Azərbaycan Partiyası elmi-praktik konfranslar, müxtəlif tədbirlər vasitəsilə Heydər Əliyevin siyasi və dövlətçilik irsini geniş təbliğ edir.

Əlbəttə, ümummilli liderin ideyaları bütün dövrlərdə həm xalqımızın mənəvi-siyasi sərvəti, həm də Azərbaycan dövlətinin inkişafını, parlaq gələcəyini təmin edən dəyərlər sistemi kimi aktuallığını qoruyub, bu gün də belədir. O, təkcə Azərbaycanın inzibati-coğrafi sərhədləri - respublikamızın hüdudları ilə məhdudlaşmır, dünya azərbaycanlılarını birləşdirən məfkurəyə çevrilib. Heydər Əliyev irsi Azərbaycan dövlətinin inkişaf istiqamətlərini müəyyənləşdirir, eyni zamanda, milli siyasi şüurun və siyasi mədəniyyətin inkişafını şərtləndirir. Bütövlükdə, çoxəsrlik tariximizin Heydər Əliyev dövrü dövlətçilik salnaməsidir.

Bir məqama xüsusi diqqət yetirmək istəyirəm. Bu, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Ümummilli Liderimizin zəngin irsinin araşdırılmasında və bu irsin xalqımızın mənəvi sərvəti kimi gələcək nəsillərə çatdırılmasında müstəsna rol oynamasıdır. Bu fəaliyyət həm Heydər Əliyev fenomeninin Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində əvəzolunmaz yerinin və rolunun daha dərindən öyrənilməsi, həm də müstəqil Azərbaycan dövlətinin keçdiyi inkişaf yolunun siyasi, iqtisadi, mədəni, humanitar, tarixi aspektlərinin fundamental səviyyədə tədqiq olunması baxımından xüsusi önəm daşıyır.

Müstəqil Azərbaycan böyük yolun - Heydər Əliyev yolunun Müzəffər davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə strateji hədəflərinə doğru addım-addım irəliləyir. Şübhəsiz ki, Ulu Öndərin görmək istədiyi bugünkü güclü, qüdrətli, nüfuzlu və qalib Azərbaycan bundan sonra da Heydər Əliyev yolu ilə əmin addımlarla, inamla, əzmlə və qətiyyətlə sürətli irəliləyişini davam etdirəcək, dünya müasir müstəqil dövlətimizin banisinin ideyalarının reallığa çevrilməsi nəticəsində daha möhtəşəm Azərbaycana şahidlik edəcək!

# Xalqın əbədi sevgisini qazanan

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEV!



**“Mən çox xoşbəxt insanam ki, Ümummilli Liderin rəhbərliyi altında uzun illər məsul vəzifədə çalışmışam və bu gün də onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti - Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında fəaliyyətimi davam etdirirəm”.**

*Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev*

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında uzun müddət işləməyim, eləcə də onunla şəxsi tanışlığım mənim üçün böyük şərəf və qürurdur. 10 May - Ümummilli Liderin doğum günündə fürsətdən istifadə edərək Heydər Əliyevlə bağlı daim xatirələrimdə yaşayan ən mühüm məqamları bölüşmək istərdim.

1990-cı ilin iyulunda, Azərbaycan tarixinin və dövlətçiliyimizin ağır günlərində, həyatı boyu qəlbi Vətəni və xalqı ilə döyünən dahi şəxsiyyət Heydər Əliyev əsl vətənpərvər kimi qətiyyət göstərərək Moskvadan Bakıya qayıtdı. Həmin o günlərin və görüşlərin iştirakçısı kimi Ulu Öndərimizlə ilk tanışlığımız yarandı.

Məlum olduğu kimi, həmin dövrdə ölkədə vəziyyət olduqca gərgin, ziddiyyətli şəkil almışdı. Müəyyən qüvvələr öz maraqları naminə vəziyyətdən sui-istifadə edir və demək olar ki, proseslər idarəolunmaz hala çatmışdı. Bu kritik dönəmdə Ulu Öndər xalqın yanında olmağa qərar verdi və özünün həyat fəlsəfəsini belə izah edirdi: ”Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib.”

## Ulu Öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının rəhbəri olduğu illərdə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün mühüm qərarlar qəbul etdi

O zaman Naxçıvan da ağır günlər keçirirdi. Sərhədyanı kəndlər ermənilərin mütəmadi hücumlarına məruz qalır və qarət olunurdu. Azərbaycanla nəqliyyat-kommunikasiya əlaqələri kəsilmiş, iqtisadi və siyasi böhran dərinləşmiş, təxribatlar baş alıb gedirdi. Ulu Öndər Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının rəhbəri olduğu illərdə Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün mühüm qərarlar qəbul etdi. Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında region dövlətləri ilə əlaqələr yaratması və xalqı öz ətrafında birləşdirərək erməni təcavüzünə qarşı müqavimət hərəkatına bacarıqla rəhbərlik etməsi mürəkkəb hərbi-siyasi şəraitdə Naxçıvanı işğaldan qorudu.

Ali Baş Komandan cənab İlham Əliyevin sözləri ilə desək: ”Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi. Ancaq naxçıvanlılar həmişə olduğu kimi müdrikliyini göstərərək Ulu Öndərin ətrafında yumruq kimi sıx birləşdilər və həm erməni işğalına tutarlı cavab verdilər, onları yerində oturtdular, həm də Azərbaycanın mərkəzi hökumətinə də öz etiraz səslərini qaldıraraq bildirdilər ki, Naxçıvanda o məkrli ssenari keçməyəcəkdir.”

Həmin günləri mən çox yaxşı xatırlayıram. Mən o illərdə dəfələrlə Bakıdan Naxçıvana Ulu Öndərin yanına gedir, ölkədə cərəyan edən siyasi proseslər barədə fikir mübadiləsi aparır və dəyərli məsləhətlər alırdım.




Mən çox xoşbəxt insanam ki, Ümummilli Liderin rəhbərliyi altında uzun illər məsul vəzifədə çalışmışam və bu gün də onun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti - Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında fəaliyyətimi davam etdirirəm.

## Azərbaycan xalqı əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir

XX əsrin sonlarında yenidən müstəqillik qazanan dövlətimiz qısa müddətdən sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. 1993-cü ilin iyununda ölkədə hakimiyyət böhranı kulminasiya həddinə çatdı, xaos və anarxiya respublikanı bürüdü. Vətəndaş müharibəsi dərəcəsinə çatdırılmış qarşıdurma dövlət müstəqilliyimizi itirmək təhlükəsi yaratdı. Həmin dövrdə hüquq-mühafizə orqanlarında çalışdığımdan hadisələrin yaxından iştirakçısı kimi deyə bilərəm ki, bütün bunlar liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək bacarığından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin ölkəyə rəhbərlik etməsinə görə baş verirdi. Prosesləri düzgün qiymətləndirə və lazımi məcraya yönəldə bilməyən hakimiyyət əhali arasında gündən-günə nüfuzunu itirirdi.

Ümummilli Lider Heydər Əliyev müstəqilliyimizin həmin mərhələsini belə xarakterizə edirdi: ”Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxildəki qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi-strateji əhəmiyyətə, zəngin təbii sərvətlərə malik olan ölkənin tam müstəqil olması başqa ölkələrdə bəzi dairələri qane etmirdi. Ermənistanın Azərbaycana etdiyi təcavüz və bunun nəticəsində Azərbaycanın zəifləməsi, məğlubiyyətə uğraması, ikinci tərəfdən də daxildə hakimiyyət çəkişməsi 1992-ci ilin iyun ayında hakimiyyətə gəlmiş qüvvələri bir ildən sonra hakimiyyətdən saldı, xalq özü saldı”.

Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının işğalı, günü-gündən gərginləşən siyasi vəziyyət, əhalinin acınacaqlı sosial durumu ölkəmizi bu bəlalardan xilas edə biləcək, xalqı öz arxasınca aparmağa qadir olan Liderə və Şəxsiyyətə ehtiyac olduğunu zəruri edirdi. Azərbaycan xalqı əmin idi ki, müstəqilliyini yenicə bərpa etmiş ölkəni düşdüyü ağır və dözülməz vəziyyətdən çıxarmağa qadir yeganə şəxsiyyət məhz Heydər Əliyevdir.

*Ardı Səh. 10*



Əvvəli Səh. 9

Beləliklə, 1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyev xalqın təkidli çağırışlarına səs verərək Bakıya qayıtdı. Həmin tarixi anların iştirakçısı kimi deyə bilərəm ki, bu qayıdış sözün əsl mənasında, ölkəmizin taleyində dönüş nöqtəsi oldu. İyunun 15-də Ulu Öndər Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçildi və xalqın qurtuluşu missiyasını cəsarətlə öz üzərinə götürdü. Tarixə nəzər salsaq görərik ki, xalqların tarixində elə günlər vardır ki, həmin günlərdə onun gələcəyini müəyyən edən təməllərin əsası qoyulub. Bu tarix isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində və inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan və xalqına arxa, dayaq olan, müdrik insan və dahi şəxsiyyət - Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

"Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr olunacaqdır", - deyən Ümummilli Lider ölkədə vətəndaş həmrəyliyi və sabitliyin bərqərar olunmasına nail oldu.

**Dövlətinə və xalqına bağlı olan milli kadrların bir çoxu mənim kimi siyasi əqidəsinə görə təqiblərə məruz qalmış və həmin illərdə hüquq-mühafizə orqanlarından xaric olunmuşdular**

Heydər Əliyev Azərbaycanın müstəqilliyini qorudu, respublikada ictimai-siyasi böhranı aradan qaldırdı və inkişafın təməlini qoydu.

Burada bir məqamı xüsusi ilə vurğulamaq istərdim. Umutmamalıyıq ki, bütün bunlar asanlıqla başa gəlməmişdir. Ölkədəki hərc-mərcliyin və anarxiyanın qarşısını almaq böyük cəsarət və gərgin iş tələb edirdi. Müstəqillikdən sonra ölkəyə rəhbərlik etmiş şəxslər öz yarıtmaz əməlləri ilə bütün sahələrdə ciddi problemlər yaratmış, ölkəni dağılmaq təhlükəsi ilə qarşı-qarşıya qoymuşdular.

Əhali arasında sosial narazılıqlar son həddə çatmışdı. Uzun illər ərzində cinayət-axtarış strukturlarında müxtəlif vəzifələrdə çalışdığıma görə, vəziyyətə yaxından bələd olduğum üçün deyə bilərəm ki, ölkədə kriminogen vəziyyət nəzarətdən çıxmış, cinayət əməlləri baş alıb gedirdi. Dövlətinə və xalqına bağlı olan milli kadrların bir çoxu mənim kimi siyasi əqidəsinə görə təqiblərə məruz qalmış və həmin illərdə hüquq-mühafizə orqanlarından xaric olunmuşdular. Ölkədə siyasi sabitliyin bərpa olunması, vətəndaş həmrəyliyinin formalaşdırılması, ordu quruculuğu, cinayətkarlıqla mübarizə və sair bu kimi həyati vacib sahələrə peşəkar və sadiq kadrların cəlb olunması və islahatların aparılması böyük çətinliklər yaradırdı.

Lakin, bütün bunlara baxmayaraq, Ulu Öndərin fədakar zəhməti hesabına ölkədə uzun illər davam edən gərginlik və qarşıdurma səngidi, respublikamız vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu və Azərbaycan gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrildi. Xalqın əbədi sevgisini qazanan Ulu Öndər Heydər Əliyev daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq, öz həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına dövlət müstəqilliyimizi yenidən bərqərar etdi. Ümummilli Liderin şəxsiyyəti, onun siyasi idarəetmə qabiliyyəti, xarizması, qətiyyəti, uzaqgörənliyi böhrana son qoydu.

**Ulu Öndər əminliklə bildirirdi ki, işğal altında qalan torpaqlarımız gec-tez düşməndən azad olunacaq və bu, Heydər Əliyevin ən böyük arzusu idi**

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində və beynəlxalq aləmdə xalqımızın strateji mənafelərini təmin olunmasında həlledici rol oynadı.

İlk növbədə, diplomatik vasitələrlə 1994-cü ilin may ayında həyati əhəmiyyət kəsb edən atəşkəs əldə edildi. Ulu Öndər Heydər Əliyev Milli Ordunun formalaşması, Azərbaycanın milli mənafelərini qorumağa qadir olan Silahlı Qüvvələrin yaradılması, torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atdı. Bütün gücünü və diqqətini ordu quruculuğuna yönəldən Ulu Öndər əminliklə bildirirdi ki, işğal altında qalan torpaqlarımız gec-tez düşməndən azad olunacaq və bu, Heydər Əliyevin ən böyük arzusu idi.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Heydər Əliyevin ideyalarını layiqincə yerinə yetirərək ordu quruculuğu sahəsində inamlı islahatlar apardı. 44 günlük Vətən müharibəsində mükəmməl əks-hücum əməliyyatları ilə torpaqlarımızı işğaldan azad edən Azərbaycan Silahlı Qüvvələri öz qüdrətini bir daha bütün dünyaya nümayiş etdirdi. Cənab Ali Baş Komandan İlham Əliyevin Şuşamızın azad olunması ilə bağlı xalqa müraciətində ata vəsiyyətini yerinə yetirdiyinə görə xoşbəxt olduğunu dilə gətirdi: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Müasir Azərbaycan dövlətinin əbədiyaşar memarı Heydər Əliyev ideyalarının sadiq davamçısı cənab Ali Baş Komandan İlham Əliyev tərəfindən qoyulan tapşırıqlar - Silahlı Qüvvələrin döyüş qabiliyyətinin gücləndirilməsi, daha effektiv silahların və döyüş texnikalarının istehsalı ilə müdafiə sənayesinin genişləndirilməsi, beynəlxalq təlimlərdə iştirakın təmin olunması, hərbi qulluqçuların hüquqlarının müdafiəsi və sosial-məişət şəraitlərinin yaxşılaşdırılması, bu gün uğurla həyata keçirilir və Ordumuz Ali Baş Komandanımızın əmr və tapşırıqlarını yerinə yetirmək üçün hər an hazır vəziyyətdədir.

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü Baş Prokurorluqda qeyd edilib

**Mayın 9-da Baş Prokurorluqda Azərbaycanın xilaskarı, müasir müstəqil dövlətimizin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Azərbaycan Prokurorluğunun tarixində Heydər Əliyevin rolu" mövzusunda tədbir keçirilib.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbir iştirakçıları əvvəlcə Baş Prokurorluğun inzibati binasının foyesində Ulu Öndərin büstü önünə əklil və gül dəstələri qoyaraq, əbədiyaşar liderin əziz xatirəsini dərin ehtiramla yad ediblər.





Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev dünya miqyaslı siyasi təfəkkürə, zəngin və qətiyyətli idarəçilik bacarığına, ən çətin vəziyyətlərdə belə tükənməz əzm və qüdrətə malik ümummilli lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz tarixi xidmətlərindən, şərəfli ömür yolundan və məharətli dövlətçilik təcrübəsindən bəhs edib, görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi siyasi kursu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə üçrəngli bayrağımızın ən yüksək zirvələrdə qürurla dalğalandığını diqqətə çatdırıb.

Baş prokuror qeyd edib ki, Azərbaycan xalqına və millətinə əvəzsiz xidməti həyatının məqsədi və mənası kimi qəbul edən, bu yolda mümkün olan bütün addımları atan Heydər Əliyev siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə müstəqil Azərbaycan dövlətçiliyinin, azərbaycançılıq məfkurəsinin formalaşdırılması və möhkəmləndirilməsi, eləcə də ölkəsinin rifahı uğrunda mübarizə meydanında olub və millətinə rəhbərlik edib. Bu yolda çoxsaylı manelərin yaradılması, dəfələrlə planlaşdırılan terror və sui-qəsd cəhdləri ilə üzləşməsinə baxmayaraq, Heydər Əliyev uzaqgörənliliyi, siyasi müdrikliyi, sarsılmaz iradəsi və qətiyyəti, ən əsası, milli ümumxalq həmrəyliyi nəticəsində müstəqil Azərbaycanı hazırkı və gələcək nəsillər üçün qoruyub saxlayıb və müasir inkişaf yoluna çıxarıb.

Bildirilib ki, müstəqil Azərbaycan Respublikasının mühüm dövlət qurumlarından biri olan prokurorluq orqanlarının beynəlxalq tələblərə və standartlara uyğun formalaşaraq əhəmiyyətli statusunun müəyyənləşdirilməsi və son nəticədə dövlətçiliyin maraqlarına xidmət edən təsisat kimi idarəçilik sistemində layiqli yerini tutması Heydər Əliyevin müdrik siyasəti, onun mütəmadi qayğı və dəstəyi nəticəsində mümkün olub.

Müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin 1998-ci il 17 iyul tarixli Sərəncamı ilə oktyabrın 1-nin respublikamızda prokurorluq orqanları əməkdaşlarının peşə bayramı günü elan olunmasının prokurorluq orqanlarının fəaliyyətinə verilən yüksək qiymətin təcəssümü kimi dəyərləndirildiyi, prokurorluğun kollektivinin onların fəaliyyətinə göstərilən yüksək diqqət və etimadı səmimi minnətdarlıq duyğuları ilə qarşıladığı, xalqımıza ləyaqətlə xidmət göstərdiyi qeyd edilib.

Xüsusi vurğulanıb ki, Heydər Əliyevin doğma xalqına ən böyük xidməti ölkənin dinamik strateji inkişaf meyarlarını müəyyən etməklə yanaşı, özündən sonra həmin konsepsiyanı müstəsna peşəkarlıqla həyata keçirməyə qadir, səmərəli fəaliyyəti nəticəsində ölkəmizi beynəlxalq arenada qabaqcıl dövlət olaraq tanınmasına nail olub, həyata keçirdiyi kompleks islahatlarla respublikamızın daimi tərəqqisini təmin edən, Ulu Öndərin özü qədər inanıb-güvəndiyi görkəmli və qətiyyətli siyasi lider İlham Əliyev kimi davamçı hazırlaması olub.

Tədbirdə Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin rəisi Fazil Həsənəliyev çıxış edərək fenomenal şəxsiyyət, dahi lider Heydər Əliyevin qətiyyətli mübarizəsi nəticəsində Azərbaycanın müstəqilliyinin bərpasından sonra ölkədə aparılan hərtərəfli məhkəmə-hüquq islahatları, o cümlədən prokurorluq orqanlarının mahiyyət və struktur baxımından yenidən qurulmasını, yüksək nəzəri biliyə və peşəkarlığa malik kadrlarla komplektləşdirilməsini, fəaliyyətin beynəlxalq standartlara uyğun formalaşdırılmaqla müasir dövlət təsisatına çevrilməsini diqqətə çatdırıb.

Sonra ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə prokurorluq orqanlarının əməkdaşları arasında keçirilmiş şahmat turnirinin qalibləri, həmçinin Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının Ulu Öndərin anadan olmasının 99-cu ildönümünə həsr etdiyi sahə həmkarlar ittifaqı komandaları arasında minifutbol turnirində ikinci yeri tutmuş prokurorluq əməkdaşları təltif olunublar.

Tədbirə yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluğun hər bir işçisinin daim Heydər Əliyev ideyalarına sadiq qalaraq onun unudulmaz xatirəsini əziz tutacağına və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında yeni müstəvidə davam etdirilən islahatların həyata keçirilməsində xidmətlərini göstərəcəyinə prokurorluğun kollektivi adından əminliyini bildirib.

Sonda Ümummilli Liderin xatirəsinə həsr olunmuş "Qanun naminə - Heydər Əliyev salnaməsi" adlı sənədli film nümayiş etdirilib.

# Heydər Əliyev ideyaları-qətiyyətlə zəfərlərə doğru!

**Azərbaycan regionun güclü və qətiyyətli aktoruna çevrilib və bütün bunların əsasında iki tarixi aspekt və paralellik əks olunmaqdadır - Heydər Əliyev və İlham Əliyev gerçəklikləri!**

**Azərbaycan xalqının Böyük oğlu, millidövlətçilik və Azərbaycançılıq məfkurəsinin banisi Heydər Əlirza oğlu Əliyev haqqında fikir bildirmək, Onun haqqında düşüncələri bölüşmək çətin və məsuliyyətli bir işdir. Belə ki, ömrünü siyasi fəaliyyətə, dövlət maraqlarına, xalqına həsr edən Heydər Əliyev faktoru dünyanın nüfuzlu siyasətçiləri fonunda daim zirvələrdə yer alıb. Məhz bu baxımdan, Heydər Əliyev deyərkən, ilk olaraq xarizmatik Lider faktoru önə çıxır.**



Və bu gün Onun böyüklüyü, əbədiliyi özünü daha qabarıq, daha geniş fonda əks etdirməkdədir. Əbəs deyil ki, bu gün Azərbaycan xalqının xoşbəxtlik meyarlarından biri də Heydər Əliyev kimi Liderə, xilaskara malik olmaq amili ilə ölçülməkdədir. Belə bir meyar isə hər xalqa, hər millətə nəsib olmur. Və əgər bu gün xalqımızın Ümummilli Lideri, Ulu Öndəri Heydər Əliyev barədə fikirlərimizi bölüşürüksə, ilk növbədə Onun Böyük Azərbaycanlı olduğunu məxsusi olaraq vurğulamalıyıq. Əbəs deyil ki, Heydər Əliyev deyərkən Azərbaycan, Azərbaycan deyərkən isə Heydər Əliyev gerçəkliyi parlaq günəştək aydın səmalarımızdan üzərimizə nur yağdırır - O, yaşayır, yaşadılır və öz əbədiliyi ilə, atalıq nuru ilə gələcək yollarımıza işıq saçır. Bu yolu müəyyən etmək üçün, bu gələcəyi təmin etmək üçün Heydər Əliyev bütün mənalı həyatı boyunca sözün əsl mənasında çarpışdı, mübarizə apardı, dünyaya qətiyyətin, fədakarlığın nə olduğunu sübuta yetirdi. Bizlər - Vətən sevdalısı olaraq Heydər Əliyevin bizlərə miras qoyduğu Azərbaycançılığı, millimənəviyyatın qorunub-saxlanılması ideologiyasını, dövlətçilik ənənəsini yaşatmaqdayıq.



*Bəhruz QULİYEV,*
*"SƏS" qəzetinin baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru*

Məqaləmin sonunda bütün bu gerçəkliklərin təməl prisniplərinin, strategiyasının, siyasi kursunun davamı və əhəmiyyəti barədə bəhs edəcəyəm. Ancaq buna qədər keçilən enişli-yoxuşlu yola nəzər salmaqla həmin yolun nə qədər çətin, hətta keçilməz sədlərdən, baryerlərdən aşılması faktorlarına da toxunmağı vacib sayıram.

## Azərbaycançılıq məfkurəsi ideyasında qurulan möhtəşəm siyasi konsepsiya

Fakt budur ki, Ulu Öndərimizin uzaqgörənliyi, xalqına və dövlətinə verdiyi sonsuz dəyəri nəticəsində təlatümlər içində boğulan, parçalanma təhlükəsi ilə üz-üzə qalan Azərbaycanımızda möhkəm xalq-iqtidar birliyi formalaşdırılmağa başlandı və qüdrətli, güclü dövlətin təməli qoyuldu. Bu tarixi gerçəklik özünü ən yüksək səviyyədə tərənnüm etdirməkdədir. Ötən əsrin 90-cı illərinin əvvəllərində - ağır dövrlərdə məhv olmaq, müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalan Azərbaycan xalqı yeganə çıxış yolunu Heydər Əliyevdə gördü və əminliklə öz Liderinə etimad göstərdi. İlk növbədə, bu sonsuz etimad hər bir azərbaycanlının gələcəyə ümidini itirməməsinə, daha dəqiq desək, inamlı baxışında öz təşəkkülünü tapmış oldu. Bu təşəkkül və təcəssüm hələ ilkin kövrək addımların başlanğıcı idi, qarşıda isə həmin addımları möhkəmləndirmək məsuliyyəti dayanırdı. Ancaq ən əsası, Heydər Əliyev faktoru Azərbaycançılıq məfkurəsinin təməlini qoymuşdu, dövlətimizin, xalqımızın xilasının da kökündə həmin reallıq ali mücəssəmə mənzərəsində xarakterizə edilə bilər. Beləliklə, Ulu Öndər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi ideyasındakı təməl prinsiplərindən biri də milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində qurduğu siyasi konsepsiyası oldu.

Yazımda kiçik olsa belə, mühüm bir ştrixə toxunaraq qeyd etmək istərdim ki, əgər Heydər Əliyevin Azərbaycançılıq məfkurəsi, ideyası, əsaslı şəkildə dərk olunmasaydı, bu gün biz Zəfər və Qələbə əzmimizdən danışa bilməzdik. Qarabağımızın düşmən işğalından azad edilməsi ilə nəticələnən 44 günlük Zəfər yolumuzun da təməlində məhz bu tarixi məfkurə, ideyaya sadiqlik, layiqli varislik dayanır.

Bu gün cənab İlham Əliyev bütün çıxışlarında bu məfkurənin qorunub-saxlanılması, gələcək nəsillərə ötürülməsi ilə bağlı fikirlərini ifadə edir, qərarlı addımlar atır, bunu millətin, dövlətin, xalqın iradəsinə xas olduğunu vurğulayır.

Bizim heç birimizə sirr deyil ki, hər bir xalqın özünəməxsus milli-ideoloji baxışı var və Ulu Öndər Heydər Əliyev bu mühüm məqamı bilavasitə dövlətçilik, Azərbaycançılıq siyasəti ilə sintezləşdirərək, möhkəm təməlləri qoymuş oldu. O, yaxşı bilirdi ki, başa çatdıra bilməyəcəyi işlərini Onun layiqli varisi davam etdirəcək, başa çatdıracaq və yeni məqsədlərə doğru irəliləyəcək. Bu baxımdan, Heydər Əliyev həyatının bütün incəliklərinə real baxış prizmasından yanaşırdı və bilirdi ki, qarşıda görüləcək çox çətin işlər var və bu işlərin realizə olunmasını yalnız İlham Əliyev həyata keçirmək gücündə, qüdrətindədir. Bu təməl dövlətimizin ideoloji prinsipidir və bu prinsip ölkəmizin daha da qüdrətli, güclü olması maraqlarına dayanır. Tarix də bu gerçəkliyi sübut etməkdədir. Əbəs deyil ki, müxtəlif siyasi-ictimai hadisələr baş verərkən, Heydər Əliyevin bir çağırışı ilə yüz minlərlə insan Onun səsinə-səs verir, Liderinin ətrafında birləşirdi. Bax, bu gerçəklik möhkəm əsaslara söykənən dövlətçilik, Azərbaycançılıq ruhunun, ideologiyasının bariz təcəssümü olaraq şanlı tariximizə fəxarət hissi ilə yazılıb.

## Güclü Azərbaycanın əsası 1969-cu ildən qoyulmuşdur

1969-cu ilədək Azərbaycan SSRİ-nin tərkibində yalnız xammal mənbəyi kimi çıxış edir, bütün sahə və istiqamətlər üzrə ən geridə qalmış ölkələrin başında gəlirdi. Respublikamızın inkişafı üçün əhəmiyyətli resurs və potensial mövcud olsa da, onlardan səmərəli surətdə istifadə edilməməsi tənəzzül meyllərinin əsasında dayanan başlıca faktor idi. Amma Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın rəhbəri olması ölkəmizin Sovet dövrü tarixində dönüş nöqtəsi oldu. 1969-cu ilin iyulu güclü Azərbaycanın əsasının qoyulduğu tarixi əhəmiyyətli gün kimi də qiymətləndirə bilərik. Belə ki, Ulu Öndər Heydər Əliyev fundamental strateji tədbirlər görməklə, davamlı və nizamlı inkişafı təmin etməyi bacardı. Sürətli sənayeləşmə kursu seçildi və qısa zaman kəsiyində sənaye sahəsinin inkişafında mühüm irəliləyişlər qeydə alındı. Ardıcıl surətdə sənaye müəssisələri tikilib istifadəyə verildi, kənd təsərrüfatı və s. sahələrdə yüksəlişlər meydana gəldi ki, bu da davamlı inkişaf konsepsiyasının həyata keçirilməsini təmin edən əsaslardan biri oldu. Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə neft sənayesində də tənəzzül meyilləri aradan qaldırıldı və bəhs edilən sahədə ehtiyatlardan səmərəli istifadə etməklə davamlı inkişafın əsası qoyuldu. Nəticə etibarilə, neft hasilatı xeyli artırıldı.

Bütün bunlarla yanaşı, təhsil sahəsində də ardıcıl və davamlı islahatlar həyata keçirildi ki, bu da kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi işinə təməlli töhfələr bəxş etmiş oldu. Məhz Heydər Əliyevin xüsusi diqqət və qayğısının fonunda kadr potensialının formalaşdırılması və təkmilləşdirilməsi istiqamətində azərbaycanlı gənclər SSRİ miqyasında fəaliyyət göstərən ali təhsil müəssisələrinə göndərildilər. Habelə, azərbaycanlı gənclərin SSRİ miqyasında fəaliyyət göstərən nüfuzlu ali təhsil məktəblərinə göndərilməsi milli mədəniyyətimizin təbliği və möhkəmləndirilməsi, milli diaspor quruculuğunun formalaşdırılması işinə mühüm strateji töhfələr bəxş etdi. Ümummilli Liderimiz həmin anları bu cür xatırlayıb: "O vaxtlar azərbaycanlıları ayrı-ayrı yollarla sovetlər ittifaqının müxtəlif yerlərinə göndərməklə, dayaq yaratmaq istəyirdim. İndi isə sərhədlər açılıb, azərbaycanlılar hər yerdə yaşaya bilər. Bir şərtlə ki, gərək, millətini, dinini, torpağını və Ana Vətənini unutmayasan".

## Azərbaycanı SSRİ miqyasında bütün sahələr üzrə liderə çevirən Heydər Əliyev!

Heydər Əliyevin qətiyyəti sayəsində milli-mənəvi dəyərlərin qorunması və dirçəldilməsi istiqamətində əhəmiyyətli tədbirlər görüldü. Mədəniyyətimiz, incəsənətimiz inkişaf etdi, dünya Azərbaycanı daha yaxından tanımağa başladı. 1978-ci ildə isə, Heydər Əliyevin təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Bu, milli dilimizin mühafizəsi və təbliği baxımından mühüm tarixi hadisə idi. Bunun ardınca "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı. Nəticədə Ulu Öndər Heydər Əliyevin 1969-1982-ci illər ərzində ölkəyə rəhbərlik etdiyi dövrdə görülən strateji tədbirləri fonunda respublikamız sürətlə inkişaf edərək SSRİ miqyasında xüsusi çəkiyə malik olan və liderə çevrilən respublika adını qazandı.

## Naxçıvandan dünyaya ucalan Ulu Öndər səsi!

Tarix sübut edir ki, 1990-cı ildə Azərbaycan mürəkkəb situasiya mövcud idi. Əslində mürəkkəb situasiya bütün postsovet məkanını əhatə etsə də, ölkələrdə çox mürəkkəb siyasi-hüquqi kataklizmlər cərəyanı müşahidə olunsa da, bu olaylar daha çox Azərbaycana və onun ayrılmaz hissəsi olan Naxçıvana öz təsirlərini göstərirdi. Muxtar Respublikanın blokada şəraitində olması, sosial-iqtisadi durumunun bərbadlığı, hakimiyyətin muxtar qurum üzərində oynamağa çalışdığı oyunlar Naxçıvanın vəziyyətini maksimum dərəcədə mürəkkəbləşdirmişdi.

Ardıcıl davam edən olaylar isə, 1991-ci ilin sentyabr ayında Heydər Əliyevin Naxçıvan MSSR-in Ali Sovetinin sədri seçilməsinədək olan tarixi mərhələdə daha da kəskinləşdi. Belə bir çətin zamanda Ali Məclisin Sədri seçilən Heydər Əliyev həyata keçirdiyi islahatlar, gördüyü tədbirlər və işlər sayəsində sabitliyin, tərəqqinin və həmrəyliyin təmin olunmasına nail oldu. Faktlar da bu reallığı kifayət qədər əks etdirməkdədir:

17 noyabr 1990-cı il tarixində Naxçıvan Ali Məclisinin I sessiyasında ilk dəfə olaraq üçrəngli bayrağımız qaldırıldı. Milli bayraq məsələsi ilə əlaqədar iki bəndlik qərar qəbul edildi.

Naxçıvan MSSR adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. SSRİ-nin mövcud olduğu bir dövrdə belə bir qərarın qəbul və icra edilməsi olduqca yüksək siyasi səriştə və cəsarət tələb edirdi ki, Ulu Öndər Heydər Əliyev bunu nümayiş etdirdi.

*Ardı Səh. 12*

# Heydər Əliyev ideyaları-qətiyyətlə zəfərlərə doğru!

**Azərbaycan regionun güclü və qətiyyətli aktoruna çevrilib və bütün bunların əsasında iki tarixi aspekt və paralellik əks olunmaqdadır - Heydər Əliyev və İlham Əliyev gerçəklikləri!**

*Əvvəli Səh. 11*

Naxçıvanda Kommunist Partiyasının fəaliyyəti dayandırıldı və Sovet ordusu, əsgəri birlikləri Naxçıvan MR ərazisindən çıxarıldı.

Həmin vaxtlar Azərbaycanda hakimiyyətdə olan səriştəsiz qüvvələr korporativ maraqlar əsasında çıxış edərək sabitliyə və inkişafa mane olmaq yönündə xüsusi fəallıq göstərirdilər ki, bu da Naxçıvanın durumuna mənfi təsir edən destruktiv faktor qismində çıxış edirdi.

Hətta iş o həddə çatmışdı ki, xarici güc mərkəzlərinin marionetəri və vassalları qismində çıxış edən hakimiyyətdəki "peşkalar" Naxçıvanda bir neçə dəfə dövlət çevrilişinə cəhd etdilər.

Bunlardan birincisi Xalq Cəbhəsinin (AXC) Naxçıvandakı 24 oktyabr 1992-ci ildə silahlı dəstələrinin Muxtar Respublikada etdiyi çevriliş cəhdi oldu. Lakin Ulu Öndər Heydər Əliyevin siyasi məharəti və əzmkar naxçıvanlıların Onun ətrafında sıx birləşməsi sayəsində mənfur çevriliş cəhdləri baş tutmadı.

Bunun ardınca, Ulu Öndər Heydər Əliyev milli ideoloji məsələləri önə çəkərək bir sıra təxirəsalınmaz tədbirlər gördü və tarixi qərarlar qəbul etdi. İlk növbədə "1990-cı il yanvar ayının 20-də törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar qəbul edildi. Qərarda 20 Yanvar hadisələrinin mahiyyəti, siyasi və hüquqi əsasları əks olunmuşdu. Eyni zamanda, 31 dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" elan edilməsi barədə də tarixi qərar qəbul edildi.

Digər tərəfdən blokada şəraitində iqtisadiyyatını inkişaf etdirən Naxçıvanın sabitliyinin davamlılığını təmin etmək üçün regional miqyasda münbit strateji münasibətlər sistemi formalaşdırıldı, Türkiyə və İranla qarşılıqlı əməkdaşlığa və tərəfdaşlığa əsaslanan rəsmi təmaslar sıxlaşdırıldı. Nəticədə siyasi fəaliyyətinin Naxçıvan dövründə Heydər Əliyev gördüyü işlər, atdığı rasional, praqmatik addımlarla Muxtar Respublikanın qurtuluşunu, dirçəlişini və həmrəyliyini təmin etmiş oldu. Bəli, bütün bunlar blokada şəraitində həyata keçirildi və belə bir işin öhdəsindən yalnız və yalnız Heydər Əliyev kimi dahi şəxsiyyət gələ bilərdi. Əbəs deyil ki, Ulu Öndərin Naxçıvan fəaliyyəti haqqında dünyanın bir çox nüfuzlu siyasi xadimləri, mətbuat səhifələri geniş fikirlərini heyranlıqla şərh ediblər.

## Heydər Əliyev siyasi iradəsi - xilaskarlıq missiyası!

Ölkəmizin o zamankı iqtidarının müstəqillik ideyalarına etinasız yanaşmalarının nəticəsi idi ki, şəraitdən istifadə edən təcavüzkar Ermənistan strateji baxımdan ən əlverişli ərazilərimizi işğal etdi. Hələ bu da son deyildi..!

Xalqımızın bir sıra ictimai-siyasi xadimlərinin terror aktlarına məruz qalmaları, dövlət strukturları arasında çəkişmələrə start verilməsi və bunların zaman-zaman daha kəskin xarakter alması Azərbaycanın bir dövlət kimi varlığını, yenicə əldə etdiyi müstəqilliyini böyük sual altında qoymuşdu. Həmin ərəfələrdə ağır vəziyyətdən çıxışı təmin edə bilməyəcəyini anlayan Ayaz Mütəllibov iqtidarı məhz AXC-nin təzyiqləri, avantüraçı fəaliyyəti fonunda çıxış yolunu istefa verməkdə gördü. Hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü Azərbaycanı sözün əsl mənasında xarici xüsusi xidmət orqanlarının mübarizə meydanına çevirmişdi. Ölkədə tam bir anarxiya yaşanır, daxili çəkişmələrin ardı-arası kəsilmirdi. Hətta əlinə silah alan hər kəs dərhal hakimiyyəti ələ keçirməyə çalışırdı və eyni zamanda, çox təhlükəli separatçılıq amilləri meydana çıxmışdı. Belə bir acınnacaqlı vəziyyət 1993-cü ilə, Ulu Öndər Heydər Əliyevin xalqın tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməsinədək davam etdi. Ölkəmizdə hökm sürən xaotik və anarxist meyllərin neytrallaşdırılmasında, mürəkkəb siyasi-hüquqi kataklizmlərin qarşısının alınmasında və ictimai-siyasi sabitliyin əldə edilməsində Heydər Əliyevin Liderlik keyfiyyətləri birinci dərəcəli amil kimi xüsusi rol oynadı. O, qısa müddətdə ölkədə sabitliyi bərpa etdi, sosial-iqtisadi tənəzzülün qarşısını aldı, müstəqilliyin əsaslarını möhkəmləndirmək istiqamətində addımlar atdı.

## Tarixi zərurətin və xalq sifarişinin təntənəsi - Yeni Azərbaycan Partiyasının yaradılması

Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindən biri ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. Belə ki, hakim dairələrin törətdikləri süni maneələrə baxmayaraq, ölkə ziyalılarının təkidli çağırışları və xalqın etimadı sayəsində 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. O zamankı hakimiyyət dairələrinin Yeni Azərbaycan Partiyasının yaranmasına göstərdikləri maneələr, ardıcıl təzyiqlər bu yola qədəm qoyan insanları özlərinin ali məqsədlərindən döndərə bilmədi. Heydər Əliyevin yüksək nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi misilsiz etimad partiyanın qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı. Fakt budur ki, YAP siyasi təşkilat olaraq, yarandığı müddətdən cəmi 6 ay sonra siyasi hakimiyyətə gəldi və bu, bilavasitə xalqın dəstəyinin, Ulu Öndər Heydər Əliyevə olan məhəbbətinin, inam və etibarının bariz göstəricisi, təntənəsi idi. Tarixdə isə yarandığı vaxtdan cəmi altı ay sonar iqtidara gəlmiş bu kimi siyasi təşklatlar demək olar ki yoxdur, yaxud barmaqla sayılacaq qədərdir

O cümlədən, YAP-ın uğurlarının davamlılığını şərtləndirən daha bir mühüm amil partiyada Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə aparılan gəncləşdirmə siyasəti oldu. Partiyanın rəhbərliyində Azərbaycan gənclərinin lideri olaraq İlham Əliyevin təmsilçiliyi bu mənada xüsusilə qeyd olunmalıdır. Məhz 1999-cu ildə keçirilən YAP-ın I Qurultayında o zaman ARDNŞ-in birinci vitse-prezidenti və Milli Olimpiya Komitəsinin prezidenti olan İlham Əliyev partiyanın rəhbər strukturuna seçildi. Əgər nəzərə alsaq ki, cənab İlham Əliyev həmin dövrdə həm də Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri idi, onda qeyd edə bilərik ki, bu, partiyanın yeni mərhələdə qazanacağı uğurların başlanğıc nöqtəsi də sayıla bilərdi.

Ulu Öndər Heydər Əliyevin siyasi varisi olaraq İlham Əliyev Yeni Azərbaycan Partiyasının gələcək fəaliyyətinin daha geniş beynəlxalq müstəvilərə daşımaq məqsədini uğurla həyata keçirdi. Artıq bu gün həm ölkə daxilində, həm də beynəlxalq siyasi arenada böyük nüfuza, əlaqələrə malik olan YAP ən güclü təşkilatı qismində öz sözünü deməkdədir. Partiya dünyada fəaliyyət göstərən aparıcı partiyalarla paralel şəkildəki siyasi təşkilatlanma prosesində öncül mövqeyini tutur, habelə önəmli birliklərdə təmsil olunmaqla Azərbaycan dövlətinin maraqlarını ifadə edir.

## Neft strategiyası: iqtisadi uğurlara doğru atılan ilk addımlar və tərəqqi konsepsiyasının ön mərhələləri

Sirr deyildi ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf və tərəqqi strategiyasının mühüm istiqamətlərindən birini də müstəqil enerji siyasəti təşkil edirdi. Ümummilli Liderin gərgin əməyi və qətiyyəti sayəsində neft müqaviləsi üzrə müzakirələrə, danışıqlara yenidən başlandı və nəhayət, çətin danışıqlar prosesindən sonra Azərbaycanın maraqlarına tamamilə cavab verən müqavilə şərtləri hazırlandı. 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında dünyanın 8 ölkəsindən 11 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq saziş imzalandı. Bununla da Azərbaycanın dünya iqtisadi sisteminə inteqrasiyasının və ölkənin enerji təhlükəsizliyinin möhkəm təməli qoyuldu.

Heydər Əliyev neft strategiyasının əsas istiqamətlərindən biri kimi, Azərbaycan neftinin dünya bazarlarına nəqlini vacib hesab edirdi. Bu məqsədlə müəyyənləşdirilən ən uğurlu marşrut Bakı, Tbilisi və Ceyhanı birləşdirən boru kəmərinin çəkilməsi idi. Həmin dövrdə müxtəlif xarici qüvvələrin təxribatlarına və təzyiqlərinə baxmayaraq, Heydər Əliyevin əzmkarlığı və qətiyyəti nəticəsində Bakı-Tbilisi-Ceyhanın çəkilməsinə dair sazişin imzalanması mümkün oldu. Türkiyə-Gürcüstan-Azərbaycan dövlətlərinin birliyi, Amerika Birləşmiş Ştatlarının dəstəyi nəticəsində, ən əsası isə, Ulu Öndərin qəti əzmkarlığı sayəsində bəzilərinin əfsanə hesab etdiyi layihə reallığa çevrildi.

O da sirr deyil ki, bu gün Azərbaycanın bənzəri görülməyən sürətlə inkişafı, dünyada nüfuz sahibi olması, müxtəlif məsələlərə münasibətdə öz mövqeyini ortaya qoyması, heç bir dövlətdən və qurumdan asılı olmayan həqiqi müstəqilliyə malik olması məhz Ulu Öndər Heydər Əliyevin düşünülmüş enerji siyasətinin uğurla davam etdirilməsi sayəsində mümkün olmuşdur.

## Mətbuatımızın qayğıkeş hamisi və stimul bəxş edəni

Mətbuatımızın inkişafında Ulu Öndər Heydər Əliyevin xüsusi tarixi töhfələri var. Bu baxımdan, əbəs yerə deyil ki, sözügedən amil Ulu Öndər Heydər Əliyev tərəfindən yüksək qiymətləndirib. Ümummilli Liderimiz milli mətbuatımızın iş prinsipini və tarixini şərh edərkən bu tarixi kəlamlarını vurğulayıb: "Şərəfli tarixə və zəngin ənənələrə malik milli mətbuatımız Azərbaycan ictimai fikrinin inkişafında, xalqımızın milli-mənəvi təkamülündə mühüm rol oynamışdır. Milli -azadlıq hərəkatının daim ön sıralarında getmiş Azərbaycan jurnalistikası cəmiyyət qarşısında duran vəzifələrin müəyyənləşdirilməsi və həlli işinə əhəmiyyətli töhfələr vermişdir".

Xüsusilə qeyd etmək yerinə düşərdi ki, sovet hakimiyyəti illərində dövlətin ideoloji tələbləri söz azadlığına, mətbuatın demokratik prinsiplərlə inkişafına imkan vermirdi. Hələ o zamanlar bu maneələri aşa bilən yeganə güc Heydər Əliyev idi!

Dahi rəhbər mətbuatımızın inkişafına səbəb ola bilən və biləcək bütün baryerləri aradan qaldırdı, həyatımızın digər sahələri ilə yanaşı, mətbuatımız da hərtərəfli inkişaf yoluna qədəm qoydu, vətəndaşların maarifləndirilməsində ideoloji vasitəyə çevrildi. Məsələn, hələ sovet hakimiyyəti vaxtlarında rüşvətxorluq və korrupsiya ilə mübarizədə, vəzifəli şəxslərin ifşa edilməsində Heydər Əliyev mətbuatın üzərinə müəyyən tapşırıqlar qoyaraq, bununla ictimai nəzarəti gücləndirməyə müvəffəq olmuşdu. Televiziyada müxtəlif çatışmayan cəhətləri əks etdirən layihələr həyata keçirilir, aparıcı qəzetlərdə ayrıca olaraq tənqidi materialların verilməsi üçün səhifələr ayrılır, açıq söz, sağlam tənqid mühiti istiqamətində çətin işlər realizə olunurdu. Həqiqətən də, SSRİ kimi dəmir pərdənin mövcudluğu dövründə belə işlərin həyata keçirilməsi qətiyyət tələb edirdi və bu imkanlar nə qədər çətin olsa belə, Heydər Əliyev tərəfindən mətbuat işçiləri üçün yaradılmışdı. Ulu Öndər bu vasitə ilə sovet jurnalistikasında fəaliyyət göstərən mətbuat işçilərimizə stimul bəxş edirdi. Təsəvvürünüzə gətirin, SSRİ-nin ən həssas vaxtlarında, Azərbaycanda fəaliyyət göstərən dövlət mətbuatlarında senzuraların tətbiq edildiyi zamanda belə, demokratiya şöləri görünməyə başlamışdı. Bu fakt heç bir başqa ittifaq respublikalarında yox idi!

Ulu Öndərimizin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra kütləvi informasiya vasitələrinin fəaliyyətini tənzimləyən zəngin qanunvericilik bazası yaradıldı, maddi-texniki bazasının, iqtisadi müstəqilliyinin gücləndirilməsi, jurnalistlərin fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirildi, mətbuat-dövlət münasibətlərində mütərəqqi ənənələrin əsası qoyuldu, 1998-ci ildə Azərbaycanda ilk dəfə olaraq senzura ləğv edildi. O da əbəs yerə deyil ki, Ulu Öndər Heydər Əliyev bir neçə dəfə Azərbaycan mətbuatının dostu olaraq seçilmişdi. Bu, Onun mediaya, jurnalistlərə verdiyi qiymətinin nəticəsi idi.

Eləcə də, 1993-cü ildən ötən dövr ərzində ölkəmizdə kütləvi informasiya vasitələrinin fəaliyyəti ilə bağlı 50-yə yaxın qanun, fərman və sərəncamın qəbul olunması milli mətbuatın inkişafına göstərilən diqqətin nəticəsidir. 1999-cu il dekabrın 7-də "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu mətbuatın hüquqi bazasının zənginləşdirilməsi işinə əhəmiyyətli töhfə oldu. Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər sonrakı dövrdə də davam etdirildi, "Məlumat azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olundu.

*Ardı Səh. 13*

# Heydər Əliyev ideyaları-qətiyyətlə zəfərlərə doğru!

## Azərbaycan regionun güclü və qətiyyətli aktoruna çevrilib və bütün bunların əsasında iki tarixi aspekt və paralellik əks olunmaqdadır - Heydər Əliyev və İlham Əliyev gerçəklikləri!

Əvvəli Səh. 12

Artıq bu gün ölkəmizdə yüzlərlə mətbuat orqanı, informasiya agentliyi, teleradio şirkəti, sürətlə inkişaf edən internet resursları cəmiyyətimizin informasiyaya olan ehtiyacının ödənilməsində əhəmiyyətli rol oynayırlar. Ulu Öndərimiz bununla bağlı növbəti tarixi fikirlərini irəli sürmüşdü: "Hər bir kütləvi informasiya vasitəsi milli dövlət quruculuğu prosesində, vətəndaş cəmiyyətinin qurulmasında, milli və bəşəri dəyərlərin bərqərar edilməsində, ölkənin inkişafının təmin edən islahatların həyata keçirilməsində səmərəli surətdə iştirak etməli, həyatın güzgüsü kimi həqiqət carçısı olmalıdır. İnsanları yüksək ideallar, humanist vətəndaş və demokratik cəmiyyət uğrunda mübarizəyə səsləməli və səfərbər etməlidir".

Əlbəttə ki, bütün bunlar dahi şəxsiyyət Heydər Əliyevin uzaqgörən siyasətinin məntiqi nəticəsi idi ki, bu olmasaydı, milli mətbuatımız hazırkı tərəqqisinə nail ola bilməzdi.

Təbii ki, əbədiyaşar Liderimizin yolunu uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyev kütləvi informasiya vasitələrinin inkişafına ciddi diqqət yetirir. Ölkəmizdə söz, fikir və məlumat azadlığının təmin olunması, tam sərbəst şəraitdə yüzlərlə qəzet və jurnalın nəşri mətbu fəaliyyətin maneəsiz həyata keçirilməsinə yaradılmış şəraitin, mətbuata dövlət qayğısının bariz nümunəsidir. Dövlət başçımız tərəfindən qəbul edilən qərarlar, verilən sərəncamlar da həmin reallığı kifayət qədər ehtiva etməkdədir.

### Ata vəsiyyətinə doğru inamlı addımlarla: Müzəffər Ali Baş Komandan, Böyük Sərkərdə İlham Əliyev - Ulu Öndər Heydər Əliyevin layiqli varisi və Alternativsiz Lider!

Bu gün Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə, reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla davam etdirilir. Məhz bunun nəticəsidir ki, bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasında öncül yerlərdən birini tutur. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu siyasətin fonunda müxtəlif inkişaf modellərinin uğurla tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti, hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması və səmərəli xarici siyasət kursunun həyata keçirilməsi müasir Azərbaycan dövlətinin gücünü artıran fundamental faktor kimi çıxış edir. 44 günlük Vətən müharibəsi və Zəfər reallığı isə bu fundamental faktorlara əlavə əhəmiyyətləri daxil etdi.

Söz yox ki, bu missiyanın təməlini Ulu Öndər Heydər Əliyev öz tarixi müraciətində qoymuşdu. Heydər Əliyev siyasi məktəbinin varisi və layiqli davamçısı Prezident İlham Əliyevin hələ 2003-cü ildə ölkə başçısı kimi səlahiyyətlərinin icrasına başladığı ilk gündən hakimiyyəti xalqa xidmət vasitəsi hesab etdiyini bildirməsi varisliyin layiqli davamının siqnalı idi. Onun Ümummilli Lider Heydər Əliyev siyasi xəttini yüksək səviyyədə davam və daha da inkişaf etdirməsi müasir dövrdə Azərbaycanın dinamik tərəqqisini şərtləndirən mühüm amil kimi çıxış edir.

Hələ illər öncə İlham Əliyev dövlət xadimi olaraq Azərbaycanın Ermənistanın işğalçılıq siyasəti ilə barışmayacağını bəyan edir, torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmayacağını vurğulayır, haqq və ədalət səsimizi çoxsaylı beynəlxalq sammit və konfranslarda bəyanatlarla ucaldırdı. Əgər bu gün beynəlxalq aləmin mühüm hissəsi özünü Azərbaycanın yanında gördüyünü qeyd edirsə, bunun kökündə düzgün xarici siyasət reallığının dayanması şəksizdir. Daha dəqiq desək, məqsədyönlü xarici siyasət nəticəsində Azərbaycan dünya birliyinin layiqli üzvünə və regionun liderinə çevrilib və bunun daha geniş izahı məqalənin aşağı hissələrində veriləcək. Ancaq qarşıda Azərbaycan xalqının, dövlətinin bir nömrəli problemi qalmaqdaydı və bu problemin kökündən həll olunması vacibliyi özünü daha çox göstərməyə başlamışdı.

Şuşamızın işğaldan azad olunması münasibəti ilə Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edən cənab İlham Əliyev həm də ata vəsiyyətini yerinə yetirdiyini qürurla, şərəflə vurğuladı. Bu, həm də belə bir qənaətdir ki, Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev zamanında işğal altındakı torpaqlarımızın, xüsusilə də Şuşamızın azad olunmasında siyasi varisi cənab İlham Əliyevin möhtəşəm yer alacağını görürdü. Uzaqgörən və əbədi liderimizin Şuşa vəsiyyəti də onun azad olunmasından sonra xalqımıza çatdırıldı. Həqiqətən də bu böyük, nəhəng bir tarixi hadisə oldu və bu hadisənin canlı şahidləri olaraq bizlər nə qədər şərəfli tarixi dövrü yaşamağımızdan hədsiz qürur hissi duymaqdayıq. Bu hiss ölçüyəgəlməz dərəcədə nəhəngdir!

### Beləliklə, Azərbaycan regionun güclü və qətiyyətli aktoruna çevrilib və bütün bunların əsasında iki tarixi aspekt və paralellik əks olunmaqdadır - Heydər Əliyev və İlham Əliyev gerçəklikləri!

Həyata keçirilən müstəqil daxili və xarici siyasət strategiyası Azərbaycanın beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətli şəkildə irəliləməsini təmin etməklə yanaşı, ölkəmizi dünya siyasətinin əsas konturlarını müəyyənləşdirən güc mərkəzlərinin başlıca strateji tərəfdaşlarından birinə çevirib. Bu, Ulu Öndər Heydər Əliyev yolunun məntiqi davamı, xalqın birmənalı dəstək verdiyi siyasətin bariz nəticəsidir və bizlər - Azərbaycan xalqı olaraq qarşıda hələ çox təntənəli, möhtəşəm və nəhəng zəfərlər, qələbələr əldə edəcəyik!

## İtaliya mətbuatı Şuşada və Bakıda keçirilmiş "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" adlı forumdan yazır




İtaliyanın bir sıra kütləvi informasiya vasitələri tərəfindən aprelin 28-də Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və ADA Universitetinin təşkilatçılığı ilə Şuşa şəhərində keçirilmiş "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" adlı beynəlxalq forum və aprelin 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə ADA Universitetində keçirilmiş "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransdan bəhs edən geniş yazılar dərc olunub.

AZƏRTAC xəbər verir ki, "Notizie Geopolitiche", "Kmetro0", "Agenzia Nova", "Nova News", "Giornale Diplomatico", "Globus Magazine", "MetroCT", "Sardegnagol", "Insideover" kimi mətbuat orqanları tərəfindən yayılmış məlumatlarda bildirilib ki, Şuşa şəhərində keçirilmiş "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" adlı beynəlxalq forumun əsas məqsədi postmünaqişə dövründə Cənubi Qafqaz ölkələri arasında əlaqələrin inkişafı, kommunikasiyaların açılması imkanlarının nəzərdən keçirilməsi, bölgənin tərəqqisinin, təhlükəsizliyinin və rifahının təməli kimi Azərbaycanın Ermənistanla münasibətlərin normallaşdırılması üçün formalaşdırdığı sülh gündəliyinin müzakirəsi olub.




"Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransla bağlı dərc olunan məlumatlarda sözügedən tədbirin 3 saata yaxın davam etdiyi, tədbir çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi söylədiyi, ardınca isə tədbir iştirakçılarının çoxsaylı suallarını cavablandırdığı diqqətə çatdırılıb. Məlumatlarda Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərimizdəki yenidənqurma və quruculuq işləri, bölgədə sülhün bərqərar olunması, Ukraynadakı böhran, Avropa İttifaqı-Azərbaycan münasibətləri, Azərbaycanın Avropaya təbii qaz təchizatı və onun perspektivləri, İtaliya-Azərbaycan Universiteti ilə bağlı fikirləri əks olunub.

Yazılarda, eləcə də tədbirdə iştirak edən italyan tədqiqatçı Daniel Vinçelli Pommierin həmmüəllifi olduğu "Azərbaycanın Mədəniyyət Paytaxtı - Şuşa" kitabını Azərbaycan Respublikası Prezidentinə təqdim etdiyi qeyd edilib.

## İraq mətbuatı: Şuşa "Qafqazın incəsənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" kimi tanınıb




İşğaldan azad olunmuş qədim Azərbaycan şəhəri Şuşaya səfərdən qayıdan iraqlı professor Moataz Abdel Həmid bir sıra mətbuat orqanında məqalə dərc etdirib. AZƏRTAC xəbər verir ki, İraqın "Kalameh", "Mustaqbl", "Anbaaiq", "Elamin. news" və digər saytlarında dərc olunan məqalədə Şuşanın tarixi və bu günü haqqında geniş məlumat verilib.

Professor məqaləsində nəzərə çatdırıb ki, SSRİ dağıldıqdan sonra gərgin ictimai-siyasi vəziyyətdən istifadə edən Ermənistan 1992-ci ilin mayında Şuşanı işğal edib, lakin illər sonra bu qədim şəhər 2021-ci il noyabrın 8-də Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən əsarətdən azad olunub.

Azərbaycan xalqı üçün tarixi-mədəni əhəmiyyət kəsb edən şəhər təkcə işğaldan azad edilmiş sıradan bir şəhər deyil. Sivilizasiya və mədəniyyət zənginliyinə, təbii gözəlliyinə görə Şuşa Qarabağın və hər bir Azərbaycan vətəndaşının rəmzidir. Şuşa həm də Azərbaycan xalqının yetişdirdiyi və dünya miqyasında görkəmli olan şəxsiyyətlərin vətənidir. Bu torpaq Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətləri olan Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Seyid Şuşinski, Üzeyir Hacıbəyli, Rəşid Behbudov, Niyazi, Fikrət Əmirov kimi dahilər yetişdirib. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci ili "Şuşa İli" elan edib. Ötən il isə Şuşa Azərbaycanın mədəniyyət paytaxtı seçilmişdi.

Tarixə ekskursiya edən professor qeyd edib ki, Şuşa əvvəllər "Kiçik Paris", "Qafqazın incəsənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" kimi tanınıb.

Bu gün işğaldan azad edilən ərazilərdə geniş abadlıq və quruculuq işləri həyata keçirilir. İşğal zamanı ermənilər tərəfindən dağıdılan dini və mədəni abidələr, yollar, məktəblər, xəstəxanalar, turizm obyektləri bərpa edilir, iqtisadi inkişafa nail olmaq üçün müasir infrastruktur yaradılır.

Məqalədə qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Qarabağda aparılan genişmiqyaslı bərpa işləri onu deməyə əsas verir ki, yaxın gələcəkdə Qarabağ Azərbaycanın dünyada tanınan bölgəsi olmaqla yanaşı, həm də ən inkişaf etmiş bölgəsinə çevriləcək.

# Azərbaycanın ərazi bütövlüyünün bərpası, Şuşada milli bayrağımızın qürurla dalğalanması Heydər Əliyev siyasətinin təntənəsidir

*Tarixdə adı dövlətçiliyin simvoluna çevrilən az sayda liderlər var. Müstəqil dövlətçiliyimizin ən müasir tarixi belə Liderin adı ilə bağlıdır, Onun ideyaları dünənimizin, bugünümüzün və gələcəyimizin əsasıdır. Ulu öndər Heydər Əliyevin adı çəkiləndə göz önünə Azərbaycanın, Azərbaycan deyiləndə Ümummilli Liderin gəlməsi də bu bağlılığın möhkəmliyini nümayiş etdirməklə yanaşı, dahi şəxsiyyətin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərinin miqyasının aydın təsəvvürünü yaradır. Ulu öndər Heydər Əliyevin "Nə qədər ki Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam!" fikirləri də özündə bütün məqamları ehtiva edir.*



*Vüqar Rəhimzadə, "91-lər"in üzvü, siyasi elmlər doktoru*

## Ulu öndər Heydər Əliyev adını tarixə müstəqilliyimizin xilaskarı, qarantı kimi yazdı

Artıq ilyarımdır ki, tartixi Zəfərimizin sevincini yaşayırıq. Bu Qələbəmiz Heydər Əliyev yolunun uğurlarının təqdimatıdır. Əgər 1993-cü ildə Ümummilli Lider xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycan adlı dövlətin varlığından danışmaq mümkün olmazdı. Ulu öndər Heydər Əliyev adını tarixə müstəqilliyimizin xilaskarı, qarantı kimi yazdı. Müstəqilliyimizin yenidən bərpasının ilk illərində yaşananlara nəzər salmaqla Ulu Öndərin xidmətlərinin böyüklüyünü, əvəzolunmazlığını böyük qətiyyətlə qeyd edə bilərik. Müstəqilliyimizin bərpasının ilk illəri tariximizin qara səhifələridir. Dövlət başçısı İlham Əliyev daim çıxışlarında bu vəzifəni qarşıya qoyur ki, müstəqillik tariximizin ayrı-ayrı dövrləri paralel şəkildə təhlil olunmalı, gələcək nəsillərə çatdırılmalı, onlar müstəqillik yolumuzun heç də hamar olmadığını bilməlidirlər.

1991-ci ildən 1993-cü ilin iyununadək olan dövr Azərbaycanın həyatında təlatümlü dövr idi. Ölkəmiz müstəqiliyini yenidən bərpa etsə də səriştəsiz, idarəçilik qabiliyyəti olmayan, şəxsi ambisiyalarını dövlət və milli maraqlardan üstün tutan antimilli ünsürlərin xəyanətləri ucbatından xalqımız bu sevinci yaşaya bilmədi. Xaos, anarxiya, özbaşınalıqlar, vətəndaş qarşıdurması, iqtisadi böhran, torpaqlarımızın işğalı həmin illərin xarakterik cəhətləri idi. Ümummilli Lider 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə bugünkü Azərbaycanın reallıqlarının əsasını qoydu.

Ulu öndər Heydər Əliyev siyasi sabitliyin təminatçısı kimi nüfuz qazandı. 1991-1993-cü illərin xaosundan, anarxiyasından, vətəndaş qarşıdurmasından, Azərbaycanı parçalanmaqdan xilas edən Ümummilli Lider ölkənin gələcək inkişaf strategiyasını müəyyən etdi və onun həyata keçirilməsi üçün mühüm addımlar atdı. Ulu Öndərin 1993-cü ilin oktyabrında Prezident seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi əsaslı şəkildə sürətləndi. Dahi şəxsiyyət, ilk növbədə, ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş apardı, ölkədəki qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edildi. Ümummilli Lider bildirirdi ki, əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz. Ulu öndər Heydər Əliyevin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində ölkədə sabitlik yaradıldı, Azərbaycan qısa müddətdə sabitlik diyarına çevrildi. 1994-cü il may ayının 12-də Ermənistanla atəşkəs sazişinin imzalanması ölkədə sabitliyin yaradılmasında, torpaqlarımızın işğalının qarşısının alınmasında, eyni zamanda, digər sahələrin inkişafı istiqamətində mühüm addımların atılmasında əhəmiyyətli rol oynadı.

## Ümummilli Lider milli birlik rəmzinə çevrilən dünya azərbaycanlılarının həmrəyliyini təmin etdi

Ümummilli Liderin dövlətimiz, xalqımız qarşısındakı xidmətlərindən bəhs edərkən Onun dünya azərbaycanlılarının birliyi, həmrəyliyi istiqamətində atdığı addımları xüsusi qeyd etməliyik. Dahi şəxsiyyət fəaliyyətinin əsas istiqaməti kimi diqqəti ölkəmizin ətrafında yaradılan informasiya blokadasının yarılmasına yönəldərək dünya azərbaycanlılarını bir amal-azərbaycançılıq ideyası ətrafında sıx birləşməyə çağırdı. Bu fikir səbəbsiz olaraq söylənilmir: Ulu öndər Heydər Əliyev Azərbaycanı azərbaycanlılara, azərbaycanlıları isə özünə qaytardı. Xalqın tarixi yaddaşının özünə qaytarılması, dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın birliyi, həmrəyliyi Azərbaycanın surətli inkişafında hərəkətverici qüvvəyə çevrildi. Ulu Öndər hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən - 1990-cı il noyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağını Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq etmiş, Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdı. O cümlədən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 16-da Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması barədə qərar qəbul edildi. Dünya azərbaycanlılarının həmrəyliyi, onların təşkilatlanması prosesini daim diqqət mərkəzində saxlayan Ulu Öndər həmrəylik gününü təsis etməklə xalqın birləşməsinə və ideoloji həmrəyliyinə müvəffəq oldu. Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlı ilə əlaqənin qurulmasında, onlar arasında birlik və həmrəyliyin yaradılmasında mühüm rol oynayır. Ümummilli Liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra diaspor quruculuğu dövlət siyasətinin əsas tərkib hissəsinə çevrildi. Ümummilli Liderin təşəbbüsü ilə 2001-ci il noyabr ayının 9-10 tarixlərində Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların bir mərkəzdən idarə olunmasının təməli qoyuldu. Dahi Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi azərbaycançılıq fəlsəfəsi Azərbaycanın müasir dünyada yerini müəyyən etmiş, milli dövlətçiliyimizin ideya əsasını təşkil edərək dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri deyil, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən milli məfkurəyə çevrildi. Ümummilli Liderin "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" fikirləri hər bir azərbaycanlı üçün milli qürur rəmzinə çevrilmişdir.

Azərbaycan xalqının tarixinə, milli-mənəvi dəyərlərinə, keçmişinə və bugününə bağlılığının göstəricisi məhz dünyaya səs salan tarixi Zəfərimizdir. Dünya azərbaycanlılarının həqiqətlərimizin təbliğinə verdikləri töhfələrin Azərbaycanın diplomatik mübarizədə qələbəsində öz payı oldu. 44 günlük İkinci Qarabağ müharibəsində də bu birlik, həmrəylik öz sözünü dedi. Tarixi Zəfərimizin reallıqları fonunda özünün V Zəfər Qurultayını Qarabağın tacı, Azərbaycanın döyünən ürəyi, Türk dünyasının mədəniyyət paytaxtı Şuşamızda keçirən dünya azərbaycanlıları postmünaqişə dövrünün reallıqlarının həyata keçirilməsində üzərlərinə düşən vəzifələri müzakirə etdilər, soydaşlarımızın tezliklə öz doğma yurd-yuvalarına Böyük Qayıdışının gerçəkləşməsinə dəstəklərini ifadə etdilər. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Zəfər Qurultayındakı proqram xarakterli nitqində xalqımızın məğrurluğunun, yenilməzliynin təqdimatı olan Qələbəmizin daimi olacağını, bu torpaqlarda əbədi yaşayacağımızı böyük əminliklə ifadə etdi. 44 günlük İkinci Qarabağ müharibəsinin rəmzinə çevrilən "Qarabağ Azərbaycandır!" fikri bir daha Zəfər Qurultayından dünyaya bəyan edildi.

## İqtisadi inkişaf strategiyasının müəllifi

Ümummilli Liderin ölkədə sabitliyi təmin etməsi Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlərin sayının artmasında əhəmiyyətli rol oynadı. 1994-cü il sentyabrın 20-də tarixə "Əsrin müqaviləsi" kimi daxil olan dünyanın nəhəng transmilli şirkətləri ilə neft kontraktı imzalandı. Öz təbii sərvətlərinin sahibi olması xalqımızın ən böyük istəklərindən biri idi. Xalqımız uzun illər ürəyində gəzdirdiyi bu arzusuna nail oldu. Ümummilli Liderin müəllifi olduğu neft strategiyası Azərbaycanın qarşısında geniş imkanlar açdı. Ölkəmizə inam artdı. Azərbaycan qısa zamanda böyük investisiyalar məkanına çevrildi, etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirdi. Çoxlarına əfsanə kimi görünən Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri reallığa çevrildi. Azərbaycan regionun aparıcı qüvvəsi, dünyanın enerji təhlükəsizliyinin təminatçısı kimi mövqeyini möhkəmləndirdi. Məhz qazanılan bu inam, etimad son 18 ildən artıq müddətdə ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında daha mühüm layihələrin icrasını, eyni zamanda, "Yeni əsrin müqaviləsi"nin imzalanmasını şərtləndirdi. 2014-cü ildə çoxtərəfli əməkdaşlığın əsası olan Cənub Qaz Dəhlizinin təməli qoyuldu və 2018-ci ildə rəsmi açılışı oldu. Həmin ilin iyununda bu layihənin əsas tərkib hissəsi olan TANAP, 2020-ci olin dekabr ayının 31-də isə TAP istifadəyə verildi. Bununla da Cənub Qaz Dəhlizinin uğurlu icrası başa çatdı. Azərbaycan bu gün də gündəmə gətirilən hər bir layihənin uğurlu sonluqla başa çatmasında maraqlıdır və bu istiqamətdə böyük qətiyyət və iradə nümayiş etdirir.

## Demokratik inkişaf dövlət siyasətinin əsasıdır

Ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biri demokratik təsisatların inkişafı, demokratikləşmə prosesini daha da sürətləndirmək, dövlətçiliyimizin əsaslarını yaratmaq üçün müstəqil dövlətin yeni, müasir Konstitusiyasının hazırlanması və qəbuludur. Müstəqil Azərbaycanın ilk Konstitusiyasının müəllifi olan Heydər Əliyev demokratik, hüquqi dövlət quruculuğu istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratdı. 1995-ci il noyabrın 12-də keçirilmiş referendumda qəbul olunan Konstitusiya sonrakı illərdə dövrün, zamanın tələblərinə uyğun olaraq təkmilləşdi, yeni əlavələrin və dəyişikliklərin edilməsi üçün ümumxalq səsverməsi keçirildi. Konstitusiyaya 3 dəfə əlavə və dəyişiklər edilib ki, bunun biri 2002-ci ildə Ümummilli Liderin hakimiyyəti, ikisi- 2009 və 2016-cı illər Prezident İlham Əliyevin dövründə həyata keçirilib. İnsan hüquq ve azadlıqlarının qorunmasına və yeni müdafiə mexanizmlərinin yaradılmasına, idarəçilik sistemində təkmilləşməyə xidmət edən bu əlavə və dəyişikliklərin hazırda ölkəmizin inkişafında rolu böyükdür və göz önündədir.

Dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində növbəti addımlar atıldı: məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və Ombudsman təsisatının yaradılması, ölüm hökmünün ləğv edilməsi və onlarla digər bu kimi islahat xarakterli demokratik təşəbbüslər bilavasitə Heydər Əliyevin gərgin əməyinin nəticəsidir. Həmçinin Ulu Öndərin humanizm siyasətinin göstəricisi kimi əfv sərəncamları imzalandı, Amnistiya aktları qəbul olundu. Bu günədək imzalanan 60-dan artıq əfv Sərəncamının 32-si Ulu Öndərin hakimiyyəti dövrünə təsadüf edir. Demokratikləmə prosecinin sürətləndirilməsini ölkənin hərtərəfli inkişafının əsası kimi dəyərləndirən Prezident İlham Əliyev uğurlu islahatları ilə Azərbaycanı demokratiya təcrübəsi nümunə olan ölkəyə çevirdi.

Milli mətbuata göstərilən dəstək ulu öndər Heydər Əliyevin cəmiyyətdə demokratik münasibətlərin inkişafına xidmət edən siyasətinin əyani təzahürüdür. Ümummilli Liderin 1998-ci il 6 avqust tarixli "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edildi. Ulu öndər Heydər Əliyev bütün dövrlərdə mətbuatın inkişafına prinsipial diqqət ayırırdı. Mətbuat işçiləri ilə mütəmadi təşkil olunan görüşlər, mətbuatın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımlar, imzalanan Fərman və sərəncamlar azad mətbuatın bugünü üçün möhkəm təməl yaratdı. Milli mətbuatın inkişafına göstərilən dəstəyə görə Ulu Öndər 2002-ci ildə (RUH) Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən təsis olunmuş "Jurnalistlərin dostu" mükafatına layiq görüldü.

## Ulu Öndər müstəqilliyimizin, suverenliyimizin qarantı olan ordu quruculuğu sahəsində də mühüm uğurların müəllifidir

Dahi rəhbərin hələ Sovet dönənimdə - 1969-cu ildə hakimiyyətə gəlişindən sonra Onun müstəsna xidmətləri sayəsində ölkəmizdə hərbi kadrların hazırlanması prosesi başlandı.

Ulu Öndərin gərgin səyləri nəticəsində 1971-ci ildə Azərbaycanda hərbi kadrlar hazırlayan məktəbin - görkəmli sərkərdə Cəmşid Naxçıvanskinin adını daşıyan hərbi liseyin yaradılmasına nail olundu. Ümummilli Liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ordu quruculuğu dövlət siyasətinin əsası kimi öndə dayandı. İqtisadiyyatın aynası kimi dəyərləndirilən dövlət büdcəsində müdafiə xərcləri ilk yerdə qərar tutdu. Müharibə şəraitində yaşayan ölkə olaraq güclü, qüdrətli orduya sahib olmaq əsas idi. Ulu öndər Heydər Əliyevn "Sülh danışıqlarını cəsarətlə aparmaq üçün güclü ordun olmalıdır" tezisi həyata keçirilən siyasətin əsasında dayandı. Müstəqilliyin ilk illərində ayrı-ayrı şəxslərə və siyasi qruplaşmalara xidmət edən silahlı birləşmələr Ali Baş Komandan Heydər Əliyevin məqsədyönlü və qətiyyətli siyasəti nəticəsində ləğv edildi, Milli Ordunun formalaşdırılması, Azərbaycanın nizami Silahlı Qüvvələrinin yaradılması ilə bağlı təxirəsalınmaz tədbirlər görüldü, orduda kütləvi fərarilik hallarına son qoyuldu, hərbi nizam-intizam möhkəmləndirildi. Ulu Öndərin 1998-ci il 22 may tarixli Sərəncamına əsasən, Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü elan olundu və hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir. Bu gün Zəfər tarixini yazan, dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşan Azərbaycan Ordusu yaradılan möhkəm təməl üzərində daha da inkişaf edir, möhkəmlənir, güclənir.

Ardı Səh. 15

Əvvəli Səh. 14

# Azərbaycanın ərazi bütövlüyünün bərpası, Şuşada milli bayrağımızın qürurla dalğalanması Heydər Əliyev siyasətinin təntənəsidir

### Dünyanın siyasi xəritəsində Heydər Əliyev zirvəsinə nəzər yetirdikdə Azərbaycanın regionda və dünyada söz sahibliyini təmin etməyin prioritetliyi xüsusi diqqət çəkir

"Azərbaycan dünyaya Günəş kimi doğacaq" tezisində ulu öndər Heydər Əliyevin ən böyük arzusu ifadə olunurdu. Ümummilli Lider bu arzusunun fonunda, həmçinin belə bir inamını da ifadə edirdi ki, bu çətin günlər gəlib keçəcək, hər bir azərbaycanlı belə qüdrətli, zəngin Azərbaycanın vətəndaşı olması ilə qürur duyacaq.

Kiçik bir ölkə ulu öndər Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrildi. Qısa müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yarandı, uğurlar əldə olundu. Yalnız ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan özünün geosiyasi imkanlarını gerçəkləşdirməyə başladı. Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırıldı. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Ulu Öndər həmişə öz sözü və çəkisi ilə seçilmişdir. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bugünü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur. Fəal diplomatiyanın nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsi mümkün olmuşdur. Ulu öndər Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil edirdi. Yeni kollektiv sənədlərə və beynəlxalq müqavilələrə qoşulan Azərbaycan bu gün özünün coğrafi mövqeyindən, təbii ehtiyatlarından, iqtisadi potensialından istifadə əsasında bir çox dövlətlərlə və beynəlxalq qurumlarla əməkdaşlıq edərək Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yaradılması, Xəzərin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarına çıxarılması layihələrini səmərəli şəkildə həyata keçirir. Ulu Öndərin xarisi siyasət sahəsində yaratdığı möhkəm təməl tarixi Zəfərimizdə öz sözünü dedi. İstər ulu öndər Heydər Əliyevin hakimiyyəti, istərsə də son 18 ildən artıq müddətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə xarici siyasətimizin əsas məsələsi olan, hazırda tarixə qovuşan Dağlıq Qarabağ münaqişəsinin həllində möhkəm hüquqi bazanın yaradılması, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasına nail olunması əsas hədəf oldu. Ümummilli Liderin xarici ölkələrə elə bir səfəri olmayıb ki, Dağlıq Qarabağ münaqişəsi əsas müzakirə mövzusu olmasın. Azərbaycanın ətrafında yaradılan informasiya blokadası yarıldı, dünyanın əksər dövlətləri və beynəlxalq təşkilatları ikili standartlara əsaslanan siyasətə uyğun olaraq işğalçını adı ilə çağırmaq istəməsələr də Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu nəinki bilir, hətta bunu qərar və qətnamələrində qeyd edirdilər. Azərbaycanın tarixi Zəfərində möhkəm hüquqi bazanın mövcudluğu əsas rol oynadı.

### Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır

Ümummilli Liderin dövlətimiz, xalqımız qarşısında xidmətlərindən bəhs edərkən hazırda Qafqazın ən böyük siyasi partiyası imicini qazanan Yeni Azərbaycan Partiyasının yaradıcısı olmasını xüsusi qeyd etməliyik. Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə yarandı. Azərbaycanın taleyini düşünən, xalqın böyük əksəriyyətinin istəyini ifadə edən 91 nəfər ziyalı ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. Yeni Azərbaycan Partiyasının yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud olan ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi. YAP-ın Azərbaycanın bütün regionlarından seçilmiş nümayəndələrin təmsil olunduğu təsis konfransı 1992-ci il noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə keçirildi. 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə nail oldular. Təsis konfransı Yeni Azərbaycan Partiyasının yaradılması haqqında qərar, partiyanın Proqram və Nizamnaməsini qəbul etdi. Konfransda Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Beləliklə, müstəqil Azərbaycanın tarixində öz üzərinə böyük tarixi missiya götürən Yeni Azərbaycan Partiyası yarandı. Ulu Öndər cəmiyyətimizin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasını qısa zamanda inkişaf etdirdi, özünün dediyi kimi "dünənin, bu günün və sabahın partiyası" səviyyəsinə yüksəltdi. YAP yarandığı gündən xalqın partiyasına çevrildi. Milyonların partiyası imicini qazanan Yeni Azərbaycan Partiyası sözlə əməl birliyi, monolitliyi əsasında sıralarını kəmiyyət və keyfiyyət baxımından daha da zənginləşdirdi, nəinki ölkənin, regionun aparıcı təşkilatına çevrildi. Son 18 ildən artıq dövrdə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən YAP-ın sıralarında hazırda 800 minə yaxın üzv birləşib. İlk gündən dövlətə, xalqa xidməti fəaliyyətinin önündə saxlayan YAP cəmiyyətin avanqard qüvvəsi kimi bütün proseslərin mərkəzində dayanır. İrəli sürdüyü təşəbbüslər, qəbul etdiyi qərarlar ilə ölkə ictimaiyyətinin dərin rəğbətini qazanan YAP ötən il VII qurultayını Zəfərimizin reallıqları fonunda keçirərək qasrşıdakı dövrün hədəflərini açıqladı. Yeni tərkibin formalaşması, partiyanın yeni Nizamnaməsinin qəbulu, yeni Proqramının təqdimatı gələcək uğurlarımızın aydın mənzərəsini yaradır. Partiyanın Zəfər ab-havasında bu il keçiriləcək 30 illik yubileyi keçilən yolun təhlili fonunda Heydər Əliyev irsinin təbliğinə böyük töhfə olacaq. Bir daha Ümummilli Liderin şah əsəri olan müasir müstəqil Azərbaycanın uğurlarından, partiyanın töhfələrindən bəhs olunaraq zamana sığmayan şəxsiyyətin böyüklüyü, Vətən, torpaq sevgisi və bu fonda xidmətləri diqqətə çatdırılacaq. Ümummilli Liderin irsi xalqımızın böyük sərvətidir, bu sərvəti qorumaq və gələcək nəsillərə çatdırmaq hər birimizin vətəndaşlıq borcudur.

### Ulu öndər Heydər Əliyev 2003-cü ildə inamın növbəti ünvanını göstərməklə dövləti, xalqı qarşısındakı xidmətlərinin miqyasını sonsuz etdi

Ümummilli Liderin xalqımız qarşısında ən böyük xidməti 2003-cü ildə göstərdiyi növbəti inamın və etimadın ünvanı oldu. Ulu Öndər bu tarixi müraciəti ilə əsasını qoyduğu siyasəti davam etdirə biləcək dəqiq ünvanı xalqa bu sözlərlə göstərdi: "...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili, təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Prezident İlham Əliyev bu inamı və etimadı doğruldaraq, Ümummilli Liderin strateji inkişaf kursunu əzmlə davam etdirərək dövlətimizi tarixinin ən qüdrətli mərhələsinə çatdırdı. Möhtərəm Prezidentimiz Ulu Öndərin azərbaycançılıq amalına sadiqdir. Ölkə rəhbəri qloballaşma dövründə bu ideologiyanı müasir çağırışlara uyğun daha da zənginləşdirmiş, azərbaycançılıq konsepsiyasını bu gün cəmiyyətin təkamülünün ideya əsasına çevirmişdir. Prezident İlham Əliyev bu xüsusda demişdir: "Bizi əsrlər boyu bir millət, bir xalq kimi qoruyan, saxlayan dəyərlərimiz olmuşdur. Bu gün bu məsələyə çox böyük diqqət göstərilir. Bu gün qloballaşan, çətinliklərlə üzləşən dünyada milli dəyərlərimiz bizim dövlətçiliyimizin təməlini təşkil edir. Bizim dövlətçiliyimizin çox möhkəm ideoloji əsasları vardır. Azərbaycançılıq məfkurəsi bizim əsas ideoloji dayağımızdır".

Dövlət başçısı İlham Əliyev ölkəyə rəhbərlik etdiyi 18 ildən artıq dövrdə Heydər Əliyev siyasətini bütün istiqamətlərdə uğurla davam etdirir. Azərbaycan ən islahatçı, demokratiya təcrübəsi nümunə göstərilən, sözünün imzası qədər əhəmiyyəti olan ölkə, sabitlik məkanı, etibarlı tərəfdaş kimi tanınır və nüfuz qazanır. İlyarımdan artıqdır ki, bu sıraya qalib Azərbaycan da yazılıb. Bütün uğurlarımızın zirvəsində dayanan tarixi Zəfərimiz Azərbaycanın sözünün imzası qədər əhəmiyyəti olduğunu, prinsipial mövqeyinin dəyişməzliyini nümayiş etdirdi. 44 gündə 30 ilin işğalına son qoyan Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə yazdığı tarix əsasında işğalçı Ermənistana heç vaxt unuda bilməyəcəyi dərsi verdi. Dövlət başçısı İlham Əliyev Ermənistanla yanaşı, onun havadarlarına keçdiyi ədalət, hüquq, milli qürur dərsi ilə Azərbaycan xalqının tarixinə sahib çıxan, məğrur, yenilməz xalq olduğunu təsdiqlədi. 44 günlük Vətən müharibəsi ulu öndər Heydər Əliyevin "Hər şey bizim gənclərə nəyi və necə öyrətməyimizdən asılıdır" tezisinin davamı olaraq Prezident İlham Əliyevin "Gənclər milli ruhda tərbiyə olunmalı, dövlət maraqlarını qorumalıdırlar" fikirlərinin real həyatda təsdiqi oldu. Azərbaycan gəncləri silaha sarılaraq "Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir" prinsipini öndə saxlayaraq qanları, canları ilə tarix yazdılar, şəhidlik zirvəsinə ucaldılar. Bu gün bu qəhrəmanlığın, şücaətin nəticəsi olaraq Qarabağımız, o cümlədən Şuşamız azaddır. Bütün işğaldan azad edilmiş torpaqlarımızda Azərbaycanın üçrəngli bayrağı dalğalanır, bərpa və quruculuq işləri geniş vüsət alıb. Böyük Qayıdışın astanasındayıq. Azərbaycanın, Türk dünyasının mədəniyyət paytaxtı olan Şuşa dünyanın mədəniyyət və diplomatiya mərkəzlərindən birinə çevrilib. Çal-çağırlı Şuşa qonaqlarını qarşılayır. Ötən il bərpa olunan "Xarıbülbül" musiqi festivalı, Vaqif Poeziya Günləri ənənəsinin davamı olaraq Şuşa bu il yenidən bu mədəni tədbirlərin yüksək səviyyədə təşkili üçün çalışır. Bu sıralamanı xeyli sayda artıra bilərik.

### Heydər Əliyev Fondunun uğurlarımıza töhfələri misilsizdir

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyevanın azərbaycançılıq ideologiyasının möhkəmlənməsində böyük xidmətləri vardır. Mehriban xanımın təşəbbüsü ilə beynəlxalq səviyyədə həyata keçirilən layihələr, mədəniyyət incilərimizin, milli-mənəvi dəyərlərimizin ölkə sərhədlərindən kənarda geniş təbliği azərbaycanlı milli ruhuna daha da güclənidir, ölkəmizi multikulturalizm, tolerantlıq məkanına çevirir. Cəmiyyətimizdə milli birliyi sarsılmaz edir.

Heydər Əliyev irsinin təbliği məqsədilə yaradılan Heydər Əliyev Fondunun bununla bərabər ölkənin hərtərəfli inkişafına xidmət edən layihələri xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır. Təhsilin, səhiyyənin, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin inkişafı, tariximizin təbliği Fondun fəaliyyətində xüsusi yer tutur. Həqiqətlərimizin təbliğində əhəmiyyətli rol oynayan müxtəlif vəsaitlərin xarici dillərdə beynəlxalq ictimaiyyətə təqdim olunması, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" kampaniyası yüksək dəyərləndirilir. Mehriban xanımın Heydər ƏLiyev Fondunun prezidenti, 2017-ci ildə Azərbaycanın Birinci vitse-prezidenti kimi fəaliyyəti bir daha bu reallıqları təsdiqləyir ki, dövlətçiliyimizin inkişafı, Azərbaycanın qüdrətli, güclü, beynəlxalq aləmdə əsl söz sahibi kimi tanınan ölkəyə çevrilməsi prioritetdir. Dövlət başçısı İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın birgə səyləri nəticəsində ölkəmiz ən yüksək zirvələri fəth edir, Zəfər sevincini yaşayır.

Bu uğurlar Heydər Əliyev siyasətinin təntənəsidir. Ulu öndər Heydər Əliyevin siyasi portretini, ideal Lider obrazını, zamana sığmayan şəxsiyyətini, milyonlarla dünya azərbaycanlılarının qürur ünvanı, sağlığında əfsanəyə çevrilən, həyatının hər bir məqamı örnək olan dövlət xadimi kimi fəaliyyətinin təhlilini bir yazıda əhatə etmək qeyri-mümkündür. Heydər Əliyevin fəaliyyətinin hər bir istiqaməti bir tədqiqat, araşdırma mövzusudur. Hələ neçə-neçə nəsillər bu məktəbdən bəhrələnəcək, Azərbaycanın dayanıqlı inkişafına töhfələr verəcəklər. Bu gün Azərbaycanın dünyaya təqdim olunan və nümunə göstərilən inkişaf modeli Heydər Əliyev siyasətinin uzaqgörənliyinin nəticəsidir. Heydər Əliyev yolu Azərbaycana daha möhtəşəm uğurlar qazandıracaq, daha yüksək zirvələri fəth edirəcək. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vaxtilə işğal altında olan ərazilərimiz haqqında söylədiyi "Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün bu, iftixar mənbəyidir. Şuşa bizim mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma tək Şuşa yox, Laçın dağları da belə əzizdir. Heç vaxt biz Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İsti suyu. Biz onlarsız yaşaya bilmərik", Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Şuşa şəhərinin 2020-ci il noyabrın 8-də işğaldan azad edildiyi gün xalqımıza müraciətində dediyi "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" sözlərini xatırlamaqla Ümummilli Liderin 2003-cü ildə göstərdiyi inam, etimad ünvanının nə qədər doğru olduğunu, Prezident İlham Əliyevin verdiyi hər bir vədi konkret əməli işdə təsdiqlədiyini, ən əsası Heydər Əliyev siyasətinə sadiqliyin möhtəşəm uğurlara yol açdığını bir daha diqqətə çatdırırıq. Bu gün Ümummilli Liderin ruhu şaddır. Çünki bugünkü Azərbaycan Onun görmək istədiyi qüdrətli Azərbaycandır!

# O qələbə, bu qələbə...

**1941-ci ildə-İkinci Dünya Müharibəsi başlananda Azərbaycan Sovet Sosialist Respublikaları İttifaqının tərkibində əsarət zəncirlərinə vurulmuş 15 müttəfiqdən biri idi. Artıq 1920-ci ildən Azərbaycanda sovet hakimiyyəti qurulmuş, 28 aprel bizim üçün "bayrama" çevrilmiş, təqvimimizə salınmış, "əlamətdar" günlərimizdən birincisi olmuşdu. O bayrama ki, 1918-ci ildə bizə müstəqilliyimizi bəxş edən Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı gün - 28 may 28 aprellə əvəzləşmişdi... Bu iki tarixi rəqəm arasındakı zaman fasiləsi isə heç də azərbaycanlıların xeyrinə işləməmişdi.**

## 28 may... 28 aprel

Bu tarixlərin belə oxşar olması da məncə ozamankı rus imperiyasının həyata keçirdiyi siyasətin tərkib hissəsi idi. İnsanlara mənəvi təsir vasitəsi olan həmin rəqəmlər hər dəfə xatırlananda bu 28-lərdə çox məqamlar açıqlanırdı. Bizim 28, onların 28-i. Bizim əlimizdə saxlaya bilmədiyimiz 28, onların zorla həyatımıza daxil etdikləri 28.

Niyə əlimizdə saxlamaya bilmədik müstəqilliyimizi. Çünki əsrlərdən bəri gözü torpaqlarımızda, sərvətimizdə olanların iştahı idi Azərbaycan. Məqam gözləyirdilər ki, vəziyyətdən istifadə edib, yüzillik arzularını həyata keçirsinlər. Bu məqam isə cəmi 23 ay yaşamağı bacaran cümhiriyyət dövrünə təsadüf etdi. Qızışdırılıb ortalığa salınan ermənilərin parlamentdə çıxardıqları min bir oyun, kənardan müdaxilələr, içəridəki qarşıqurmalar bu müstəqilliyin ömrünü hər gün bir az da azaldırdı. Lakin bütün bu təzyiqlər şəraitində cümhuriyyətimizin qəbul etdiyi qərarlar, irəli sürdüyü məsələlər müstəqil Azərbaycan, onun gələcəyi üçün çox böyük əhəmiyyətə malik idi. Düşünəndə ki, 1918-ci ildə müstqilliyimiz əlimizdən alınmasaydı, indi onun 100-dən artıq yaşı vardı və bugünkü inkişafımızın iki qatına malik idik, bunu yalnız təəssüf hissi ilə qarşılayırıq. Həqiqətən də əlimzidən alınan 70 il müstəqillimizlə yaşasaydıq, indi daha nələrə qadir idik. Lakin zamanın diqtəsi tam ayrı imiş. Bu xalq min bir əziyyətlə qazandığı, uğrunda qan tökdüyü müstəqillinin dadını cəmi 23 ay yaşayacaqmış. Və sonrakı 70 ildə müstəqillik 28-i ilə əsarət 28-i arasındakı zaman kəsiyinə baş əyməli olacaqmış. Çünki bu, xalqın taleyi, alın yazısı idi.

## İkinci Dünya Müharibəsi: yaşanan tarix...

Bəli, 1941-ci ildə İkinci Dünya Müharibəsi başlananda biz SSRİ-nin tərkibinə sığdırılmış 15 xalqdan biri idik. Artıq illər idi ki, Rusiyanın rəhbərliyi altında yaşayırdıq. Artıq bu bizim həyat tərzimiz idi. SSRİ özünü zorla bizə vətən etmişdi. Şüurlara yeridilirdi ki, SSRİ bizim vətənimizdir. Lakin biz içimizdə vətənimiz Azərbyacanla yaşayırdıq. "Vətənin haradır" sualının bir cavabı vardı: Azərbaycan.

Biz elə bir xalqıq ki, köməyə çağıranın harayına yetmişik həmişə. Bu da qürurumuzdan, mənəvi zənginliyimizdən irəli gəlib. Kiminsə çağırışına səs verməyi, ona kömək göstərməyi lazım bilmişik. Çünki milli mentalitetimiz, adət-ənələrimizə əsaslanan xarakterimiz belə formalaşıb. Bu səbəbdən də İkinci Dünya Müharibəsində Rusiyaya vətənimiz olaraq kömək etməyə yox, bizdən kömək istədiyi üçün yollanmışdıq. Mənəvi və maddi, bütün olanımızla yardım etmişdik. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Azərbaycan xalqı İkinci Dünya Müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunəsi göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir. 1941-1945-ci illərdə respublikanın 600 mindən çox oğlan və qızları cəbhəyə getmişdir".

Bəli, xalqımız həm canıyla, həm də sərvətiylə bu maharibəyə köməklik göstərmişdir. Azərbaycan nefti Rusiyanın Almaniya üzərində qələbə çalmasında böyük amil olmuşdur. Minlərlə oğul, qızlarımız müharibədə böyük şücaət göstərmiş, adlarını bu tarixin səhifələrinə yazmış, həm SSRİ, həm də dövlətimiz tərəfindən mükafatlara layiq görülmüşlər. Minlərlə azərbaycanlı ailəsinə müharibədən "qara kağız" gəlmiş, minlərlə qadın həyat yoldaşını, minlərlə uşaq ata-anasını itirmişdir.





Düz beş il azərbaycanlılar arxa cəbhədə böyük əzmlə çalışmış, əldə olunanlar cəbhəyə göndərilmişdir. Qadınlarımız zinət əşyalarını, ana yadigarı cehizlərini, qiymətli ev əşyalarını cəbhəyə yardım fonduna təhvil vermişlər ki, müharibə SSRİ-nin xeyrinə bitsin. Ona görə ki, gedənlər sağ-salamat geri qayıtsın, müharibənin coğrafiyası böyüməsin, insanlar dinc yaşaya bilsinlər.

Beləliklə, İkinci Dünya Müharibəsi bizim xalq üçün də yaşanan tarixə çevrilmişdir. 1990-cı illərdə dövlətimizə rəhbərlik edənlər bu tarixə də kölgə salmaq istəyirdilər. "Bizim tarix deyil 9 may, bizim ölkədə də qələbə günü kimi qeyd olunmamalıdır" deyirdilər. Lakin xalqımızın ümummilli lideri hakimiyyətə qayıdandan sonra bu məsələyə də öz dəyərli münasibətini bildirdi. Həmin müharibəyə yollananlar, həyatını itirənlər, xalqın bu müharibəyə sərf olunan sərvətləri barədə danışaraq İkinci Dünya Müharibəsini azərbaycanlılar üçün yaşanan tarix adlandırmış, bu səbəbdən də 9 mayın hər il qeyd olunacağını vurğulamışdır. Bu addım xalqın qədir-qiymətini, yaşadığı tarixi, itkiləri düşünməyən ozamankı rəhbərlərin məhdud dünyagörüşləri fonunda xalqa canıyananlıq, onun yaşadığı tarixə dərin hörmət, millətə böyük sevgi göstəricisi idi.

9 may azərbaycanlıların yaşadığı 5 illik ağrılı-acılı günlərin qələbə ilə bitdiyi, cəbhəyə yollananların o tarixdən etibarən evlərinə döndüyü gün idi. O qələbə insanlara bundan sonra dinc həyat vəd edirdi. İtirdikləri minlərlə övladının, müharibəyə sağ gedib, həyatının qalan hissəsini əlil kimi yaşamaq məcburiyyətində qalan minlərlə qazinin olmasana, 5 il ərzində insanların arxa cəbhədə dəridən-qabıqdan çıxmasına, sübhdən gün batanadək çalışmasına, sərvətlərinin öz ölkəsinin çiçəklənməsi-yeni məktəb, xəstəxana, mədəniyyət ocaqlarının tikilməsi, yolların çəkilməsi, insanların rifahının artırılması əvəzinə cəbhəyə göndərilməsinə baxmayaraq 9 may insanlara dinc, sakin bir həyat vəd edirdi...

## 8 may... 9 may

Lakin bu əzmkar, qəhrəman, zəhmətkeş insanlar xəbərsizdilər ki, zaman gələcək, qələbəsinə can qoyduqları xalqın ordusu üzərlərinə gələcək, kimlərinsə havadarına çevrilib bu vətənə müharibə "bəxş" edəcəkdir. Bilmirdi ki, Almaniyaya qarşı birlikdə döyüşdüyü ordu 1990-cı il yanvar ayının 19-dan 20-nə geçə Bakıya hücum çəkəcək, azadlıq mücadiləsinə qalxan günahsız insanlar harada qarşısına çıxdısa, həyatına son qoyacaqdır. Bilmirdilər ki, 1992-ci ildə həmin ordu Xocalıda elə bir faciənin iştirakçısı olacaqdı ki, dünyada bərabəri olmayan bir dəhşətlə yadda qalacaqdı. Bilmirdilər ki, gün gələcək, 9 may-qələbə günündən bircə gün əvvəl-8 may Azərbaycanın əzəli torpağı Qarabağın baş tacı Şuşanın işğalı günü olacaqdı. O işğalı ki, erməni adlı qonşuluqdan kənarlar bir addım belə Şuşaya yaxınlaşa bilməzdilər, havadarları olmasaydı. Bilmirdilər ki, Şuşa həsrəti 30 ilə qədər zaman kəsiyini əhatə edəcək, 30 ilədək 8 maydan sonra 9 may hər gəlişində ürəkləri göynəldəcək, yurd hicranlı insanların göz yaşına çevriləcəkdi. Ata-baba ocaqlarından zorla qovulmuş, ölkəsinin dörd bir bucağına yayılmış evsiz-eşik, yurd həsrətli insanların ahına çevriləcəkdi. Sonrakı gün 9 mayda isə azərbaycanlılar 40, 50, 60, 70 il öncə imperiyanı qorumaq üçün cəbhəyə gedən və qayıtmayan oğul-qızlarını anacaq, bilməyəcəklər ki, bu qələbəyə sevinsinlər, ya kədərlənsinlər.

Bilmirdilər ki, 8 mayın üzüntülü Şuşa xatırlamasından sonra 9 mayda hər yerdə toy-bayram qurulacaq, qələbə günü qeyd olunduqca yeni bir qələbəyə can atılacaq, ürəklər bir an o qələbənin içində olmağı arzu edəcək. İki tarixi gün arasında tarixin dolanbac yollarında qalacaq, çıxış yolunun harada olacağını arıyacaqdılar. Bu iki bir-birinə zidd tarix azərbaycanlıların uzun illər ürək ağrısına çevriləcəkdi. O zamana qədər ki, 2020-ci il yetişəcək, payız gələcək, o payızdan 44 gün ötəcək. O tarix Qarabağ Zəfəri ilə tarixin səhifələrinə düşəcək. O Zəfər ağrılı-acılı günləri silib aparacaq...

## O qələbə... bu qələbə...

77 il öncəki qələbə... 2 il öncəki qələbə... İlk baxışdan deyə bilərik ki, bunların bir-biri ilə nə əlaqəsi var. Ancaq əslində çox əlaqəsi var. Yuxarıda bu əlaqənin bir qədərini təhlil etməyə çalışdım. Lakin bu o qədər böyük tarixi prosesdir ki, barəsində danışmağa günlər, yazmağa səhifələr lazımdır. Qəzet yazısı olaraq bu qədərini desək də, deyə bilmədiyimiz çox nüanslar var.

2020-ci ilin payızı o qələbə ilə bu qələbənin məkanından, insanlarından, dövründən, kimlərindən, nələrindən söhbət açır. Söhbət açır ki, biz əzmkar, qürurlu xalqıq. Qonşuluq üçün gözəl keyfiyyətlərimiz var. Söhbət açır ki, biz kimik, ətrafımızdakılar kimdir. İki illik qələbəmiz böyük bir tarixi keçmişimizi gündəmə gətirir. Günahkarları, günahsız olanları, sözündə bir olanları, sözündə min olanları, ədalətli, haqlı olanları, ədalətdən xəbərsizləri gətirir ortaya. Onlardan söhbət açır ki, Azərbaycanda bir atalar sözü var: haqq nazilər, lakin üzülməz. Üzülmədi də.

44 günlük Vətən müharibəsi tarixi ədalətin bərpası oldu. Xalqımız xoşbəxtmiş ki, bu ədaləti bərpa etmək üçün Ulu Tanrı bizə böyük şəxsiyyətlər qismət edibmiş. Onların bir qərinəyə yaxın apardıqları əməli iş sayəsində ədalət bərqərar oldu. Bu dünyanın ədalətsizlikləri qarşılığında həll olundu. Ədalətə göz yumanların, kar olanların gözləri qarşısında bərpa olundu. Ulu öndərimizin işğal altında olan torpaqlarımızın azad olunması ilə bağlı vəsiyyəti dövlət başçısı, Ali Baş Komandan tərəfindən yerinə yetirildi. Bir xalqın 30 illik şərəf məsələsi öz həllini tapdı. Yurd həsrətli minlərlə insanın hicranına son qoyuldu. Ölkənin inkişafı, Milli Ordunun gücləndirilməsi, dünya səviyyəsində illərlə aparılan siyasət nəticəsində Qarabağ məsələsi öz həllini tapdı. Bu vətənin gəncləri tarixə qızıl hərflərlə Zəfər sözünü yazdılar. Düşməni torpaqlarımızdan əbədiyyən qovub özləri əbədiyyətə qovuşdular.

Biz indi müzəffər dövlət başçısının rəhbərlik etdiyi qalib ölkənin vətəndaşlarıyıq. Biz indi qürurla yaşayırıq. Torpaq-şərəf-namus məsələsini həll etmişik. Qələbə qazanmışıq. Düşmənin başına dəmir yumruq ağıl gətirib. Hədlərini bildirib. Bu gün ölkəmizdə həm 77 il öncəki müharibə iştirakçıları, həm Birinci, həm İkinci Qarabağ müharibələrində iştirak edənlərə diqqət və qayğı ilə yanaşılır. Onlara mənzillər, avtomobillər verilir, mükafatlar təyin olunur, adları əbədiləşdirilir. Bu, dövlətimizin hər hansı dövrdən asılı olmayaraq vətəndaşına göstərdiyi dəyərdir. Biz bu dəyərlərlə qürur duyuruq.

O qələbə... bu qələbə... Onların hər biri ayrı-ayrı vaxtlarda baş versə də, məzmunca ayrı-ayrı mövzuların müharibəsi olsa da, hər ikisində Azərbaycan vətəndaşı var. Bu vətəndaşlar 77 il öncə də, 2 il öncə də dinclik, sakitlik, əmin-amanlıq, ümumilikdə öz vətənləri Azərbaycan üçün döyüşmüş, şəhid, qazi olmuşlar. Tarixin çox məqamlarını üz-üzə gətirən bu qələbələr elə tarixin səhifələrindəcə hər an azərbaycanlılardan söhbət açır. Əsrlər sonra da dəyişməz qalacaq bu tarix vaxtilə kimlərin haqlı, kimlərin haqsız olduğunun göstəricisidir. Bütün zamanlarda isə haqq bizimlədir. Çünki biz haqq insanlarıyıq...

***Mətanət MƏMMƏDOVA***

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3220